# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə şəhərinə səfər edib



3


SƏS

№ 042 (7210)

7 mart 2025-ci il.
Qiymәti 60 qәpik


## İğdır-Naxçıvan qaz kəməri Azərbaycan-Türkiyə qardaşlığını daha da möhkəmləndirəcək



7

# Dünya ticarət müharibəsi




8

### "Siyasi proseslərdə iştirak edən tərəflər arasında sağlam siyasi dialoq ənənələri daha da dərinləşdirilir"



4

### Dmitri Solonnikov: "Ermənistanın təklifləri Azərbaycanı qane etmir"



10

### "İxtisasları "ölməkdən" xilas edə bilərik"



12

## Avrasiyanın yeni güc mərkəzi



15

## Bu tarixlərdə iş saatları QISALDILACAQ



12

# Milli Olimpiya Hərəkatı: Azərbaycan gəncliyinin sağlamlığı, idman uğurları və vətənpərvərliyinin təməli

Ölkəmizdə olimpiya hərəkatının başlanılmasına və onun fəaliyyətinə bu günün prizmasından nəzər saldıqda gözlərimiz önündə bir qərinəlik dövrün uğur və nailiyyətlərlə dolu mənzərəsi açılır. Bəlkə də 30 ilin əvvəlində idmanın inkişafı ilə bu nöqtəyə gəlib çıxmağın mümkünlüyü heç ağıla da gəlməzdi. Çünki həmin dövr o dövr idi ki, ölkə iqtisadi cəhətdən tənəzzülə uğramışdı. Sovet imperiyasının buxovlarından yenicə azad olan xalq olmazın çətinlikləri ilə üz-üzə qalmışdı. Bu, həyat tərzi olaraq gənclərimizdən də təsirsiz keçmirdi. Milli Ordumuzun yenicə təkmilləşdiyi o illərdə gənc oğlanlar 4-5 il əsgəri xidmət keçir, qayıdanlar işləmək üçün iş yerləri tapmırdı. Gənc qızların da sosial həyatı çox passiv şəkildə idi, onların asudə vaxtlarının səmərəli təşkili üçün əsaslı bir ünvan yox idi. Belə bir dövrdə gənclərin üzünə onların maraqlarını təmin edə biləcək qapıların açılması təbii ki, illər sonra bu uğurların sadalanması ilə nəticələnəcəkdi. Bu qapı idmanın inkişafı, ölkəmizdə Olimpiya Hərəkatının başlanması idi. Bu, həm də ölkənin gələcək inkişafına istiqamətlənmiş siyasətin prioritetlərindən biri idi. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycanda Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Azərbaycan dünyada idman dövləti kimi tanınır. İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir".



### Bədənin düzgün tərbiyəsi sağlam nəsil yetişdirir

Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalmışdır. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan vermişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmiş, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənmiş, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Mən imkan daxilində hamıya, gənclərə isə, əlbəttə, maksimum dərəcədə idmanla məşğul olmağı məsləhət görürəm. Ona görə ki, bu, sağlamlıq üçün, ilk növbədə cəmiyyət üçün faydalıdır".

Bədən tərbiyəsi, yəni bədənin tərbiyəsi hər dövr üçün ən aktual məsələdir. Yəni hər bir insan bədənini müəyyən istiqamətdə tərbiyə etməyi bacarırsa, zamanla onun faydalarını da görməyə başlayır. Bədənin tərbiyəsi öncə hər bir ailədə valideynlərin üzərinə düşən vəzifədir. Hər bir ata-ana övladının kiçik yaşlardan bədəninin tərbiyəsinin əsasını qoymalı, müxtəlif rejimlər tətbiq etməklə bunu onun vərdişinə çevirməli və sağlam həyat tərzinin təməlini qoymalıdır.

Bəzən bədən tərbiyəsi dedikdə çox insan tək idmanı nəzərdə tutur. Lakin bu, belə deyil. İnsanın gün ərzində səhər saatlarından gün bitənədək fəaliyyəti onun bədəninin tərbiyəsini xarakterizə edir. Bura səhər gəzintiləri də, yemək, istirahət saatları da, kitab oxumaq, dərs çalışmaq, hər hansı bir işi görmək də, yaxud əksinə, sağlam həyat tərzinə zidd olanların hər biri daxildir. Beləliklə, kiçik yaşdan bədənin tərbiyəsinə necə başlanarsa, sonrakı illərdə də həyatımız əsasən o qayda ilə davam etdirilir.

Sağlam həyatın, mənalı ömrün, cəmiyyətə layiqli olmağın, ən əsası isə vətənsevərliyin, vətənpərvərliyin əsası bədənin tərbiyəyə necə alışdırılmasından birbaşa asılıdır. Düzgün bədən tərbiyəsi sayəsində şüurun, beynin sürətli inkişafı, hadisələrə baxış bucağının düzgün qurulması, cəmiyyətə sağlam şəkildə yanaşması ilə insan, sözün həqiqi mənasında, mənsub olduğu ölkə üçün uğurdur. Bunun üçün də bədən tərbiyəsinin inkişafı dövlətimiz tərəfindən diqqətdə saxlanılan prioritet məsələlərdəndir.

### Sağlam nəsil -güclü idman

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idmanı da əhatə etmişdir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Prezident cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyi münasibətilə keçirilən mərasimdə deyirdi: "Biz əlbəttə ki, ilk növbədə, idmanla məşğul olmaq üçün şərait yaratmalı idik və bu istiqamətdə dövlət investisiyaları hesabına Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilmişdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bir sözlə, son illər ərzində həm bölgələrdə, həm Bakıda idmanın inkişafına, infrastruktur layihələrinə qoyulan vəsait öz nəticəsini verməkdədir".

Prezident İlham Əliyevin Sərəncamı ilə "İdman İli" elan edilən 2012-ci il də Azərbaycan idmançıları üçün uğurlu il olub. İdmançılarımız Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında daha yaxşı nəticə əldə edib. London Olimpiadasında idmanın 16 növü üzrə 53 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazanmaqla bundan əvvəlki olimpiadalardakı rekordunu yeniləyib. 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında isə Azərbaycan milli komandası medal sayına görə 14-cü yerdə qərarlaşdı. İdmançılarımız milli komandamızın aktivinə 18 medal yazdırdılar.

2021-ci ildə Tokioda XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan 44 idmançı ilə təmsil olunub və ölkəmizə 3 gümüş, 4 bürünc medal gətiriblər. Azərbaycan komandası medalların əyarına görə 67-ci, medalların sayına görə 33-cü pillədə qərarlaşıb. Ötən il Fransada keçirilən XXXIII Yay Olimpiya Oyunları da ölkəmizə uğur gətirdi. Bu günədək 2 cüdoçumuzun qızıl medal qazanaraq Olimpiya çempionu olması Azərbaycanda idman sahəsinə göstərilən qayğının nəticəsidir. Dövlətimizin başçısının və birinci xanımın idmançılarımız Hidayət Heydərov və Zelim Kotsoyevə zəng vurmaları, təbrikləri, onlarla bağlı sosial şəbəkə hesablarında paylaşım etmələri ümumilikdə Azərbaycan gəncliyinə verilən dəyərdir.

Azərbaycan Milli Olimpiya Komandası Paris Olimpiadasını 7 medalla (2 qızıl, 2 gümüş və 3 bürünc) başa vurdu. Komandanın heyətində cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev final görüşündə qələbə qazanaraq Paris Olimpiadasının qalibi oldu. Taekvondoçu Qaşım Maqomedov həlledici görüşdə zədə səbəbi ilə məğlub olaraq olimpiadanın gümüş medalına sahib oldu, yunan-roma güləşçisi Həsrət Cəfərov isə Paris Olimpiadasını bürünc medalla başa vurdu.

Paris Olimpiadasında 7 medala sahib olan Azərbaycan Milli Olimpiya Komandası medalların əyarına görə 30-cu pillədə, medalların sayına görə isə 33-cü pillədə qərarlaşdı.

Bütün qələbələrin təməlində dövlət başçısının ötən dövr ərzində tez-tez federasiya rəhbərləri, idmançılarla görüşləri, tövsiyələri, onlara qayğı ilə yanaşması, zəhmətlərini dəyərləndirməsi dayanır. Həmçinin idman sahəsində əsl yüksəliş dövrünü yaşayan Azərbaycanda mükəmməl idman infrastrukturu da yaradılıb. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı və digər möhtəşəm idman obyektləri bunun göstəricisidir. Bütün bunlar ölkəmizi beynəlxalq yarışların, dünya çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib. Təsadüfi deyil ki, belə möhtəşəm idman qurğuları 2012-ci ildə futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatının, 2015-ci ildə birinci Avropa Oyunlarının, 2016-cı ildə futbol üzrə 17 yaşadək oğlanlar arasında Avropa çempionatının, 42-ci Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının və qadınlar arasında voleybol üzrə Avropa çempionatının, 2019-cu ildə bədii gimnastika üzrə dünya çempionatının, habelə Formula-1 Azərbaycan Qran-prilərinin, 2021-ci ildə futbol üzrə Avropa çempionatının müəyyən mərhələlərinin yüksək səviyyədə təşkil olunması ilə nəticələndi.

### İdmançılarımız yarışlarda qaldırdıqları Azərbaycan bayrağını Qarabağda da qaldırdılar

"İdman təkcə fiziki sağlamlıq deyil, bu, həm də özünəinamdır, iş qabiliyyətidir, mənəvi vəziyyətdir",- deyən Prezident İlham Əliyevin bu dəyərli fikirlərinə istinadən demək olar ki, bəli, idman sağlamlıqla yanaşı, həm də özünəinamı, eyni zamanda qorxmazlığı, əyilməzliyi, igidliyi özündə ehtiva edir ki, bütün bunlar isə insanda vətənpərvərlik hissinin formalaşmasında böyük əhəmiyyətə malikdir.

Ölkəmizdə gənc nəsil bədən tərbiyəsi və idmanla kütləvi şəkildə məşğul olduğundan bu, son illər vətənpərvər gəncliyin də yetişməsində mühüm rol oynamışdır. Sağlam həyat tərzi, düzgün yaşam, cəmiyyət üçün gərəkli fərd olmaq insanda Vətəninə, torpağına, el-obasına sevgi, qədirbilənlik hissini formalaşdıran amillərdir. Bugünkü gəncliyin yüksək vətənpərvərlik keyfiyyətinə malik olmasında bu sahəyə göstərilən diqqət və qayğı öz sözünü deyib. 2020-ci ildə 44 günlük Vətən müharibəsində gənclərimizin dünyaya nümunə olan vətənpərvərliyi dövlətimizin vətəndaşına göstərdiyi qayğının bəhrəsi kimi təzahür etdi. Statistikaya görə Vətən müharibəsində idman sahəsi üzrə 500 nəfər iştirak edib. Onlardan 54 nəfəri şəhidlik zirvəsinə yüksəlib. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərə 390 nəfər könüllü kimi qatılıb. Hərbi xidmətə çağırılanlar 33, hərbçi kimi iştirak edənlər isə 23 nəfər olub. Müharibə iştirakçılarından 67 nəfər yaralanıb.

Gənclərimizin torpaqlarımızın işğaldan azad olunması uğrunda göstərdikləri şücaət, onların fiziki gücü, son nəfəslərinədək rəşadətlə döyüşməsi, torpaq, Vətən uğrunda şəhid olması göstərdi ki, bu xalqın övladlarının Vətən sevgisi bütün sevgilərdən, istəklərdən öndədir. Hər bir yarışda Azərbaycan bayrağını qürurla dalğalandırmağa nail olan idmançılarımız üçrəngli bayrağımızı Qarabağda da dalğalandırmağa nail oldular. Gənclərlə görüşündə Prezident İlham Əliyev onların Vətən müharibəsindəki şücaətindən söhbət açaraq demişdir: "Şuşa qalasına dırmaşmaq, təkcə Daşaltıdan Şuşaya piyada getmək, necə deyərlər, böyük sınaqdır. Amma sənin üzərinə avtomatlardan, pulemyotlardan, tanklardan atəş yağdırılırsa, mənəvi və fiziki ruh yüksəkliyi lazımdır. Bu, mənəvi və fiziki ruhun birliyidir. Bəs əgər bizim gənclər hazırlıqsız olsaydı, əgər onlar fiziki cəhətdən zəif olsaydı, bacarardılarmı? Bacarmazdılar. Ona görə idman bu deməkdir. Dinc həyatda da hökmən lazımdır, hökmən".

Bəli, Olimpiya Hərəkatının uğurları ölkəmizə ötən 20 ildə yüksək səviyyədə rəhbərlik edən dövlət başçısının, eləcə də Olimpiya Hərəkatının rəhbərinin uğurları, yüksək idarəetmə təfəkkürü ilə gələcəyə hesablanmış siyasətin nəticəsi, nəyi nə vaxt etməyin əyani göstəricisidir. Elə Azərbaycanın bugünkü inkişafı da, 2020-ci ildə 30 illik mücadilənin sonu olaraq 44 gündə Qarabağın işğaldan azad olunması da, 2023-cü ilin 20 sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatı nəticəsində ərazi bütövlüyümüzün bərpası da, bu gün ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması da dövlətimizin başçısının nəyi nə vaxt edəcəyini düzgün müəyyənləşdirməsinin bariz göstəriciləridir.

*Mətanət Məmmədova*

# Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə şəhərinə səfər edib

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva martın 6-da Gəncə şəhərinə səfər ediblər.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular. Sonra şəhər sakinləri ilə xatirə fotoları çəkdirildi. Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Arzu Əliyeva Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə Heydər Əliyev Fondu tərəfindən aparılan təmir-bərpa işləri ilə tanış oldular. Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov məktəbdə aparılan əsaslı təmir-bərpa işləri ilə bağlı məlumat verdilər.

Bildirildi ki, 1969-cu ildə istifadəyə verilmiş tədris müəssisəsində 700-dən çox şagirdin təhsil almaq imkanı olub. Lakin məktəb binası artıq istifadəyə yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən 2024-cü ilin sentyabr ayından əsaslı təmir işlərinə başlanılıb. Binada təmir işlərinin bu ilin sentyabr ayında - yeni tədris ilinə qədər yekunlaşdırılması nəzərdə tutulub.













Qeyd edək ki, yeni tədris ili üçün Heydər Əliyev Fondu paytaxt Bakıda və regionlarda bir sıra məktəblərin inşasını və təmir işlərini başa çatdırmağı nəzərdə tutur.




Yarandığı gündən təhsil sahəsinə xüsusi diqqətlə yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirən Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramlar həyata keçirərək, ölkəmizdə təhsilin inkişafına öz dəstəyini göstərir. Məktəblərdə təmir-tikinti işləri, mövcud şəraitin yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən görülən işlərlə yanaşı, Heydər Əliyev Fondu tərəfindən də həyata keçirilən layihələr təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Arzu Əliyeva Gəncə şəhəri 40 saylı körpələr evi-uşaq bağçasında oldular. Birinci vitse-prezidentə bağçanın mövcud vəziyyəti ilə bağlı məlumat verildi. Qeyd edildi ki, bu məktəbəqədər təhsil müəssisəsi 1967-ci ildə inşa olunub. 120 yerlik uşaq bağçasında faktiki 70 uşağın təlim-tərbiyəsi aparılır. Hazırda bina yararsız vəziyyətdədir.

Birinci vitse-prezident Mehriban Əliyeva bağçada məktəbəqədər təhsilin və uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili məqsədi ilə müvafiq tapşırıqlar verdi. Respublikamızda yeni uşaq tərbiyə müəssisələrinin inşası, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulması üzrə həyata keçirilən dövlət proqramları ilə yanaşı, Heydər Əliyev Fondu da bu sahəni daim diqqətdə saxlayır. Fond 2014-cü ildən etibarən "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramını həyata keçirərək, uşaqların təlim-tərbiyəsinə, onların bilikli və savadlı yetişməsinə öz töhfəsini verir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Ermənistan silahlı qüvvələrinin 2020-ci ildə Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsini əbədiləşdirmək üçün inşa edilən Gəncə Memorial Kompleksinin layihəsi ilə tanış oldular. Qeyd edək ki, kompleksin təməli 2022-ci il yanvarın 30-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub.

Memorial Kompleksin ərazisi 4 hektar təşkil edəcək. Kompleksin tərkibindəki muzey binası 2 mərtəbədən ibarət olacaq. Alt mərtəbədə əsas sərgi zalı yerləşəcək. Sərgi zalından kompleksin açıq sahəsinə çıxış olacaq. Açıq sahə spiral formalı divar boyu davam edərək raketin yerdə olan izini simvolizə edəcək. Üst mərtəbədə müxtəlif tədbirlərin keçirilməsi məqsədilə çoxfunksiyalı otaq yerləşəcək. Kompleksin ərazisində raket zərbəsinin endirildiyi binaların konservasiya edilmiş qalıqları da yer alacaq. Gəncə Memorial Kompleksinin tikintisinin 2025-ci ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulur.



Xatırladaq ki, Vətən müharibəsi dövründə Gəncə şəhəri oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı "Toçka-U", "Smerç", "SCUD" və digər raket qurğularından endirilən zərbələrə məruz qalıb. Nəticədə 26 mülki şəxs həlak olub, 142 dinc sakin yaralanıb.

# "Siyasi proseslərdə iştirak edən tərəflər arasında sağlam siyasi dialoq ənənələri daha da dərinləşdirilir"

***Ölkəmizdə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin, habelə internet televiziya kanalları rəhbərlərinin, qəzet redaktorlarının və digər jurnalistlərin növbəti birgə səfəri bu dəfə martın 6-da Xankəndi, Əsgəran və Xocalıya təşkil olunub.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkədə siyasi dialoq mühitinin daha da dərinləşdirilməsi, habelə milli maraqlar və dövlətçilik naminə siyasi proseslərdə etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar edilməsi məqsədilə mütəmadi surətdə müxtəlif səpkili layihələr icra olunur. Azərbaycan ictimaiyyəti son beş il ərzində iqtidarın mövcud istiqamətdəki davamlı təşəbbüslərinin şahididir. Siyasi dialoq ilə əlaqədar bütün təşəbbüslər mətbuatda işıqlandırılır və bu məlumatlar ictimaiyyət üçün tam olaraq açıqdır.










Qeyd edək ki, siyasi dialoq mühitinin təşviqi ilə bağlı təşəbbüslər institusional və qanunverici müstəvilərdə olmaqla yanaşı, ölkəmizdə yeni siyasi mədəniyyətin formalaşdırılması kimi mühüm sahəni də əhatə edir. Təsadüfi deyil ki, dövlətimizin başçısı öz çıxış və müsahibələrində siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürləri davamlı olaraq qeyd edir.

Konstruktiv əməkdaşlığın qurulması çərçivəsində siyasi partiya rəhbərləri üçün işğaldan azad olunmuş ərazilərə birgə səfərlərin təşkili təcrübəsi xüsusi əhəmiyyətə malikdir. Xatırladaq ki, sağlam və işgüzar münasibətlərin bərqərar olunmasına xidmət edən siyasi dialoq ilə bağlı toplanmış təcrübənin zənginləşdirilməsi üçün ölkə siyasilərinin birgə səfərləri daha öncə Ağdam, Şuşa (2 dəfə) və Zəngilana təşkil olunub.

Xüsusi olaraq vurğulanmalıdır ki, birgə səfərlərin birində ölkə siyasiləri Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə 2022-ci il iyunun 15-də Şuşa şəhərində keçirilmiş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" adlı beynəlxalq konfransda iştirak ediblər. Beləliklə, təşviq olunan dialoq mühiti sayəsində müxalif siyasi partiyalar, eyni zamanda, təşkil olunan beynəlxalq tədbirlərdə də tərəf-müqabili kimi iştirak edirlər.

Növbəti - sayca 5-ci birgə səfərin ünvanı Xankəndi, Xocalı və Əsgərandır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə baş tutan 6 mart səfərində 24 siyasi partiyanın nümayəndələri, tanınmış politoloq və siyasi şərhçilər, habelə internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər.

Səfərin iştirakçıları əvvəlcə Əsgəran qala-kompleksi ilə tanış oldular və kompleks haqqında geniş məlumat əldə etdilər. İştirakçılar səfər çərçivəsində müxtəlif məkanlar ilə yanaşı, Xocalı şəhərində inşa edilən Xocalı Soyqırımı Memorialında aparılan işlərlə yaxından tanış oldular. Səfər iştirakçıları, həmçinin Xocalının Ballıca kəndində tikilən fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülmüş işlərlə tanış olmaq imkanı əldə etdilər.

Daha sonra səfər iştirakçıları Xankəndi şəhərində oldular. Xankəndi şəhərində 2023-cü il noyabrın 8-də Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirildiyi Zəfər meydanını ziyarət edən səfər iştirakçıları burada mətbuat nümayəndələrinə verdikləri müsahibələrdə öz təəssüratları ilə bölüşdülər.

Səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Xankəndi şəhərində iştirakçıların qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı surətdə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında məlumat verdi.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin bütün dünya azərbaycanlılarının qürur mənbəyi olduğunu xüsusi vurğulayan Administrasiya rəsmisi qeyd etdi ki, Xankəndi şəhərində Zəfər meydanında ölkənin bütün əsas siyasi partiyalarının bir yerdə toplanması da Azərbaycanın siyasi tarixində əlamətdar hadisə kimi dəyərləndirilməlidir.

Ədalət Vəliyev çıxışında bildirdi ki, müharibə dövründə olduğu kimi hər zaman vətənpərvər qüvvələri birləşdirən əsas amil milli maraqlar və dövlətçilik mövqeyidir.

Səfər çərçivəsində siyasilər Xankəndi, Xocalı və Əsgəranın iqtisadi, habelə turizm potensialı ilə də tanış oldular. Təbii landşaft, nadir təbiət, gözəl meşələr, dağlar, bulaqlar, çaylar, habelə icra olunan infrastruktur layihələri - bütün bunlar regionun inkişafı üçün zəmin yaradır. Səfərin iştirakçılarına bildirildi ki, Xankəndi, Xocalı və Əsgəranın turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaqdır. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcəkdir. Nəzərə alınmalıdır ki, yaradılacaq yeni infrastruktur Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

Təşkil olunmuş səfər timsalında sevindirici haldır ki, siyasi proseslərdə iştirak edən tərəflər arasında işgüzar mühitin və sağlam münasibətlərin qorunması məqsədilə atılan bütün addımlar siyasi partiya rəhbərləri tərəfindən fəal şəkildə dəstəklənir. Təşviq olunan dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir.

# Böyük bir həsrətə son qoyuldu - SİYASİ PARTİYA RƏHBƏRLƏRİ

***Bu gün ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələri, tanınmış politoloq və siyasi şərhçilər, habelə internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər növbəti birgə səfər çərçivəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə martın 6-da Xankəndi, Əsgəran və Xocalıya yola düşüblər. SİA mövzu ilə bağlı səfərdə iştirak edən partiya sədrlərinin fikirlərini öyrənib.***



**Azad Vətən Partiyasının sədri Akif Nağı:** "Səfər çox vacibdir. Bu, hərtərəfli və müsbət dəyərləndirilməlidir. Bildiyiniz kimi, bir neçə gün əvvəl partiyaların iştirakı ilə böyük



dəyirmi masa keçirildi. Yeni siyasi situasiyada, suverenlik və ərazi bütövlüyünün bərpa olunduğu bir şəraitdə siyasi dialoq məsələsi, siyasi proseslərin yeni mərhələsi, bununla bağlı müzakirələr getdi. Müsbət məzmunlu müzakirələr dəyərləndirildi və ümumi işlərin davamı kimi qiymətləndirilir bu proseslər. Bu tədbirlər Azərbaycanda sağlam siyasi mühitin formalaşmasına, siyasi dialoqun inkişafında həlledici rol oyanyır.

Hazırda biz gəldik, çatdıq Əsgərana. Burada söhbətlər olundu, məlumat verildi. Bölgə üzrə Prezidentin xüsusi nümayəndəsi Elçin Hüseynov məlumat verdi, onun köməkçiləri də həm qala divarları, həm də regionun ümumi vəziyyəti ilə bağlı ətraflı məlumat verdilər. Çox maraqlı məqamlar var. Burada hörmətli Ədalət Vəliyev də iştirak edir. Yəni, heyətin rəhbəri olaraq onun təşkilatçılığı ilə baş tutan bu səfər hər sahədə böyük əhəmiyyət daşıyır.

Bu, həm də böyük uğurdur ki, müxtəlif mövqedə dayanan partiyalar bu şəkildə bir araya gəlirlər. Azərbaycan siyasi proseslərinin inkişafı baxımından partiyaların əməkdaşlığı vacibdir. Eyni zamanda, belə səfərlər nəticəsində partiyalar arasında ünsiyyətin yaranması, canlı dialoqun qurulması üçün önəmli rol oynayır. Çünki insanlar çöldə, səfər zamanı daha yaxşı tanınırlar, xarakterlər daha aydın şəkildə üzə çıxır, insanlar bir-birinə daha çox yaxınlaşır və daha təbii münasibətlər formalaşır.

Bu səfər çərçivəsində həm bölgədə gedən proseslərlə, aparılan abadlıq işləri ilə bağlı məlumat alırıq, həm də partiyalar arasında ünsiyyətin qurulması baxımından vacib bir məsələlərdən biridir. Ona görə də böyük ehtimalla bu cür proseslər davam edəcək. Səfərimiz hələ davam edir, bundan sonra isə Suqovuşana gedəcəyik, daha sonra Xankəndidə olacağıq. Hər şey qaydasındadır və hər şey yaxşıdır".

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə:** "Bu gün Prezident Administrasiyasının siyasi pratiyaları və Qa-



nunvericilik hakimiyyəti əlaqələr şöbəsinin bilavasitə təşkilatçılığı ilə ölkədə fəaliyyət göstərən partiya rəhbərlərinin, politoloqların, ictimai siyasi xadimlərin Xocalıya, Xocavəndə və Xankəndiyə reallaşdırılıb. Bu bir neçə gün bundan əvvəl keçirilən elə administrasiyanın müvafiq şöbəsi tərəfindən düzənlənən tədbirdə deyildi və artıq bundan sonra reallaşdırılıb. Bundan əvvəlki dönəmlərdə də bu kimi səfərlər reallaşdırılmışdır. İşğal olunmuş ərazilərdən Ağdama, 2 dəfə Şuşaya, Zəngilana və digər bölgələrə səfərlər olmuşdur.

Biz əvvəlki səfərlərdə Azərbaycanın dağıdılmış şəhərlərini, kəndlərini, qəsəbələrini, viran qalmış infrastruktur sahələrini, eləcə də sözün həqiqi mənasında yandırılmış torpaqlarımızı görüb, kifayət qədər pərişanlıq hissi keçirirdik. Amma eyni zamanda qürurlanırdıq ki, torpaqlarımızı işğaldan azad etmişik və bu torpaqlara yenidən qayıda bildik. Əslində bugun də ikili hislər keçiririk, amma bilirik ki, bu torpaqları işğaldan azad etmişik. Xocalıya yenidən qayıtmışıq, Xocalı yenidən qurulmaqdadır! Xocalıda 1 saylı məktəbi gördük, onun yenidən inşa edilmiş həyətində futbol meydançası qurulub, məktəbli uşaqlar orada futbol oynayırdılar. Sözün həqiqi mənasında elə bu möhtəşəm görüntü idi. Çünki uşaqlar yenidən Xocalıya qayıdıb, onu yenidən qurub yaradacaqdırlar, dövlət hesabına və öz yaşayışları ilə bu torpaqları yenidən rövnəqləndirəcəkdirlər.

İnsanlarımız bu torpaqlara qayıtdıqca burada yeni canlanma baş verir. Xankəndidə, eləcə də başqa ərazilərdə möhtəşəm işlər görülməkdədir. Qarabağ universitetinə gəldik, burada 150 tələbə təhsil almaqdadır. Eyni zamanda burada məktəb binasında inşa edilmişdir ki, burada da 600 nəfər şagird təhsil alır. Bu ərazilər yenidən qurulur, yeni binalar tikilir və bura müəyyən iş adamları investisiya qurmaqdadır".

**Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu:** "Vətən torpaqlarımıza səfər etmək çox möhtəşəm idi. Bu bizim Əsgərana, Xocalıya, Xankəndiyə ilk səfərimiz idi. Qürurverici səfər idi, əlbəttə. Vətənin hər qarış torpağı bizim üçün müqəddəsdir. Bu torpaqlarda torpaqların işğaldan azad edilməsi uğrunda canlarını fəda etmiş şəhidlərin ruhları yatır. Bu torpaqlar erməni şovnistləri



tərəfindən işğal ediləndə əsir düşmüş, canlarını itirmiş insanların ruhları yatır. Belə torpaqları səyahət etmək həm duyğusaldır, həm də sevindiricidir.

Allah Cənab Prezidentin canını sağ etsin. Prezidentin iradəsi ilə, ordumuzun, vətənimizin mərd oğullarının əməliyyatları ilə torpaqlarımız azad edildi. Uzun çəkən həsrətdən sonra nəhayət ki, torpaqlarımızı görə bildik, qayıtdıq. Bununla da böyük bir həsrətə son qoyuldu. Buna böyük bir qarşılaşma, qovuşma da demək olardı. Bu bizim müqəddəs torpaqlara sayca 5-ci səfərimizdir. Hər birində xatirə var".

**Ağ Partiyanın sədri Tural Abbaslı:** "Səfər siyasi partiyalarla qanunvericilik hakimiyyətinin əlaqədar şöbəsinin təşkilatçılığı ilə



keçirilir. Biz artıq bu şöbənin təşkilatçılığı ilə partiyalar olaraq 5- ci dəfə idi ki, Qarabağa səfər edirdik. Bu çox müsbət alındı, çünki qan tökülb, həmrəylik göstərmək, iqtidar müxalifətin bu ərazilərə birgə səfər etməsi həm daxilə, həm də xaricə güclü mesajdır. Azərbaycanın müstəqilliyi uğrunda heç bir siyasi fikir ayrılığı, qütbləşmə ola bilməz. Çünki biz hər bir məsələdə bir yerdəyik!

Biz burada Əsgəran qalasına, Xankəndiyə, Xocalıya gəldik. Xoş təəssüratlar nədən ibarətdir? Məsələn biz Xocalını illərdir faciə kimi, insanların qətlə yetirilməsi, göz yaşı ilə anırıq. Məktəblər fəaliyyət göstərir. Məktəblərdə yenidənbərpa işləri görülür, məktəbli uşaqlar burada futbol oynayırdılar. Zamanında Xankəndidə Azərbaycana qarşı təhdidlər yağdırırdılar, hərbi paradlar keçirdirdilər, parlament binası keçirirdilər. Amma bu gün hər bir yerdə Azərbaycan bayrağı dalğalanır. Partiyaların birgə səfəri, çiyin-çiyinə birgə görünmələri də önəmlidir".

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı:** "Prezident Administrasiyanının siyasi partiyalar və qanunvericiliklə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi altında ölkədə fəaliyyət göstərən partiya rəhbərlərinin, politoloqların, ictimai siyasi xadimlərin, eyni zamanda media kapitanlarının Əsgərana, Xocalıya səfəri başa çatmışdır. Bu səfər bizdə böyük bir sevinc və xoş duyğular yaratdı. Həqiqətən də gördüklərimizdən böyük sevinc, qürur hissi duyduq. Əsgərandan Xankəndiyə kimi olan məsafə həqi-



qətən də tikinti meydançasına bənzəyirdi. İlk olaraq Əsgəran qalası ilə tanış olduq. Prezidentin Xankəndi üzrə səlahiyyətli nümayəndəsi Elçin Usubov Əsgəran qalası ətrafında onun durumu haqqında ətraflı məlumat verdi. Bəlli oldu ki, Prezidentin xüsusi tapşırığı əsasında bərbad vəziyyətə salınmış bu Əsgəran qalası ən yüksək səviyyədə tarixi abidə kimi əbədiləşəcəkdir.

Daha sonra Xocalının Ballıca kəndində olduq. Ballıcanın abadlığı bizi heyran etdi. Bunu Prezidentin səfəri zamanı telekanallarda da izləmişdik. Ballıca Azərbaycanın ən dilbər guşələrindən birinə çevrilib və öz sakinlərini gözləməkdədir.

Qarabağ universitetinin rektoru bizə ətraflı məlumat verdi, hədəflər haqqında danışdı. Sonra Xankəndinə gələrək Elçin Usubov buradakı işlər barədə bizə məlumat verdi, xatirə şəkli çəkdirdik. Geriyə böyük təəssüratlarla qayıdırıq. İşğaldan azad olunan ərazilərimiz gözəl anlarını yaşayır. Burada çox yaxşı şərait qurulub. Bütün bunların arxasında Prezidentimizin siyasi iradəsi və xalqına məhəbbəti dayanır".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn:** "Mən ilk dəfədir ki, Xankəndidə olurdum. Səmimi şəkildə ifadə edim ki, çox unudulmaz hisslər yaşadıq. Çünki bir vaxtlar



bu hadisələrin baş verdiyi təhlükə, təhdid dövləti və xalqımız üçün biz düz Xankəndinin mərkəzində olduq. Universitet və məktəbləri gördük. Burada futbol oynayan uşaqları izlədik və bir daha dedik ki, şükür olsun, Allaha".

***Ayşən Vəli***

# İrəvan Müəllimlər Seminariyasının məzunu

Azərbaycanın qədim mədəniyyətə və zəngin ədəbi irsə malik olan şəhərlərindən olan İrəvan ədəbi-estetik fikrimizin inkişafında da böyük rola malikdir. Qeyd edək ki, çar Rusiyası dövründə İrəvan ədəbi-mədəni irsinin inkişafında Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, Eynəli bəy Sultanov kimi qabaqcıl fikirli ziyalıların əvəsiz rolu olmuşdur. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir. Tarixin müxtəlif dönəmlərində dövrünün tanınmış simaları soyqırıma və deportasiyaya məruz qalmış, dünyanın bir sıra ölkələrinə - Şimali Azərbaycan, Türkiyə, Orta Asiya, İran, Rusiya və digər ölkələrə üz tutmuşdular.

Bu gün İrəvan Müəllimlər Seminariyasının məzunlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, parlamentin üzvü, maarifçi Həmid bəy Xəlil ağa oğlu Şahtaxtinski haqqında söhbət açacağıq.

Kimdir Həmid bəy Şahtaxtinski? O, 1880-ci il martın 12-də Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olmuş və ilk təhsilini mollaxanada almış, üçüncü dərəcəli şəhər məktəbində oxumuşdur. 1899-cu il iyunun 5-də İrəvan müəllimlər seminariyasının tam kursunu bitirərək 379 nömrəli attestat almışdır. O, 1899-cu il sentyabrın 1-də İrəvan rus-tatar məktəbinə müəllim təyin edilmişdir. Qafqaz tədris dairəsi Təhsil idarəsinin (Popeçitel) 27 oktyabr 1901-ci il tarixli təklifi ilə Həmid bəy Şaxtaxtinskiyə İrəvan Müəllimlər Seminariyasında türk dili dərslərini tədris etməsinə icazə verilmiş, təhsil idarəsinin 9 aprel 1902-ci il təklifi ilə o, tutduğu vəzifəyə təsdiq olunmuşdur. İrəvan müəllimlər seminariyasında 5 ildən artıq bir müddətdə pedaqoji fəaliyyət göstərdikdən sonra 1907-ci il oktyabrın 23-də öz xahişi ilə vəzifəsindən azad edilmişdir.

## PEDAQOJİ FƏALİYYƏTİ

Təhsilini davam etdirmək məqsədi ilə 1907-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olan H. Şahtaxtinski ikinci kursda oxuyarkən xəstələnib Bakıya qayıdır. O, bir il burada qalaraq Bakı Alekseyevsk Ali Hazırlıq məktəbində müəllim işləyir və bir il sonra yenidən Odessaya gedib təhsilini davam etdirir. 1912-ci ildə universiteti bitirir və 1913-cü il mayın 30-da ikinci dərəcəli diploma layiq görülür. Onunla bağlı olan mənbələrdə qeyd olunur ki, H. Şahtaxtinski ali təhsilini başa vurduqdan sonra Bakıya - burada yaşayan ailəsinin yanına qayıtdıqdan sonra 1913-cü ildən Bakı quberniyası Xalq məktəbləri direktorunun icazəsi ilə müəllimləri hazırlamaq üçün şəxsi kurslar açır və eyni zamanda əvvəl Ramanada, sonra isə 1916-cı ilə qədər Alekseyevsk peşə məktəbində müəllim olaraq çalışır. H.Şahtaxtinski 1916-cı ilin əvvəlində Qafqaz Təhsil dairəsi müdiri Rudolfun əmri ilə Yelizavetpol şəhərindəki Yelizavetpol Müəllimlər Seminariyasına riyaziyyat müəllimi təyin olunaraq, bir il sonra isə keçmiş Yelizavetpol quberniyasının Qazax və Nuxa qəzaları üzrə Xalq məktəblərinin təlimatçısı işləyir.

## AXC QURUCULARINDAN BİRİ KİMİ TARİXƏ İMZASINI ATIR

O, Fevral inqilabından (1917) sonra siyasi fəaliyyətə başlayır. 1917-ci ildən "İttihad" partiyasının üzvü olur. 1917-ci ildə Rusiyada baş verən inqilabından sonra H.Şahtaxtinski Tiflisdə keçirilən Müəllimlər Qurultayında Müvəqqəti Zaqafqaziya Hökuməti tərəfindən Qafqaz Təhsil dairəsi komissarlığının üzvlü-



yünə seçilir. H. Şahtaxtinski 1918-ci ildə Zaqafqaziya Seymi formalaşdıqdan sonra Zaqafqaziya Hökumətinin Xalq Təhsil naziri vəzifəsində çalışır. 1919-cu ilin iyul ayından rəsmi olaraq İttihad Partiyasının üzvü olur.

Maraqlı bir ömür yaşayan H.Şahtaxtinski AXC qurucularından biri kimi tarixə imzasının atır. 1918-ci ildə Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra H.Şahtaxtinski Hökumətin Təhsil işləri üzrə səlahiyyətli nümayəndəsi kimi Qafqaz Tədris Arxivinin Gürcüstan, Azərbaycan, Ermənistan arasında bölünməsi ilə bağlı bir müddət orada qaldı. 1918-ci ilin iyunun 6-da F.X. Xoyskinin Gəncədə formalaşdırdığı ikinci Hökumət kabinetində H.Şahtaxtinski Xalq Maarifi və Dini Etiqad nazirinin (nazir N. Yusifbəyli idi) müavini oldu[3] və 1918-ci ilin oktyabrına qədər orada qalaraq xalq müəllimlərinin təkmilləşdirilməsi üzrə kurslara rəhbərlik etdi. O, bu işləri başa çatdırdıqdan sonra 1918-ci ilin noyabrında Bakıya gəldi. 1918-ci ilin dekabrın 26-da F.X.Xoyskinin formalaşdırdığı üçüncü Hökumət kabinetində də o, Maarif və Dini Etiqad nazirinin müavini olaraq çalışır.

1919-cu ilin martın 14-də N. Yusifbəylinin yaratdığı 1-ci (sayca 4-cü) Hökumət kabinetində H.Şahtaxtinski Maarif və Dini Etiqad Nazirliyinin idarəedicisi kimi fəaliyyətə başlayır. Lakin sonradan onun Baş nazir N.Yusifbəyli ilə münasibətlərində fikir ayrılığı yarandığından özü və müavinləri vəzifələrindən istefa verirlər, 7 ay yarım işsiz qalır. 1919-cu ilin dekabrın 24-də N.Yusifbəylinin formalaşdırdığı ikinci (sayca 5-ci) Hökumət kabinetində H. Şahtaxtinski Maarif və Dini Etiqad naziri təyin olundu. O, bu vəzifəni 1920-ci ilin martın 5-nə qədər icra etdi. 1920-ci ilin martın 5-dən sonra isə bu vəzifə İttihad Partiyasının üzvü Mirzəməhəmməd Şahsuvarova tapşırılır.

Qeyd edək ki, H.Şahtaxtinski Azərbaycan Cümhuriyyəti dövründə maarif sisteminin inkişafına böyük əmək sərf edir. O, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasında, Bakı Dövlət Universitetinin açılışının təşkilində önəmli rol oynayır, orada müəllim, prorektor (1919-25) kimi çalışır. O, eyni zamanda Azərbaycan Cümhuriyyəti Hökumətinin tapşırığı ilə xalq təhsilinin yaxşı mütəxəssisi kimi Ali Pedaqoji İnstitutun yaradılması layihəsini tərtib etməyə başlayır, bu işi Azərbaycan sovetləşəndən sonra axıra çatdıraraq, Xalq Komissarları Sovetinin Sədri N.Nərimanova təhvil verir. Həmçinin, Bakı Xalq Maarifi şöbəsi nəzdindəki ikiillik Müəllimlər İnstitutunda və Azərbaycan Dövlət Tibb İnstitutunda (1930-1940) işləyir.

## REPRESSİYA İLLƏRİNİN QURBANLARINDAN BİRİ

Azərbaycanın ümumtəhsil məktəbləri üçün dərsliklərin, Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komissiyaların sədri olmuş, yeni Azərbaycan əlifbasının yaradılmasında iştirak etmişdir. Belə bir ömür yaşayan Şahtaxtinski repressiyaya məruz qalır və 1941-ci ildə həbs və sürgün edilir. 1944-cü il fevralın 3-də Arxangelsk vilayətində sürgündə həlak olur.

Bəli, qədim tarixi olan İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixində yer alıb. Tarixi qədim olan İrəvanda 1881-ci il noyabrın 3-də tərkibində iki sinif olmaqla İrəvan Müəllimlər Seminariyasının I sinfinin açılışının olması burada təhsilə verilən önəmin bir nümunəsidir. Birinci il seminariyaya 9 müəllim, 42 şagird cəlb edilib. 1882-ci ildə seminariyanın II sinfi, 1883-cü ildə III sinfi açılmışdır. Beləliklə, Qafqazda olan bütün müəllimlər seminariyası kimi, İrəvan Müəllimlər Seminariyası da 4 sinifdən ibarət olmuşdur. Sənədlərdə qeyd olunur ki, İrəvan Müəllimlər Seminariyasının pedaqoji kontingentinin formalaşmasında əsasən, Qori Müəllimlər Seminariyasının məzunlarından istifadə edilmişdir. Seminariyada müxtəlif fənlər tədris edilməklə yanaşı, bir sıra peşələr - xarratlıq, cildçilik işi, tərəvəzçilik və ipəkçilik fənləri də könüllü olaraq tədris olunurdu. İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olmuşdur. Tanınmış simalardan Haşım bəy Vəzirov, Həmid ağa Şahtaxtinski, Tağı bəy Səfiyev, İbadulla Muğanlinski, Şamil Mahmudbəyov, Cabbar Məmmədov və başqaları İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar.

1918-ci ilin mayında İrəvan quberniyasının ərazisində ilk erməni dövləti - Ermənistan Respublikası qurulduqdan sonra İrəvan Müəllimlər Seminariyasının fəaliyyətinə son qoyulmuşdur. İrəvan Müəllimlər Seminariyasının direktoru V.Dobrıninin 1918-ci ildə yazdığı hesabatda göstərilir ki, 1915-16-cı tədris ilində seminariyanı 19 nəfər, 1916-17-ci tədris ilində 22 nəfər, sonuncu - 1917-18-ci tədris ilində isə 23 nəfər azərbaycanlı bitirmişdir. Belə bir elm, təhsil və mədəniyyət mərkəzi olan İrəvan tarixi dövründə bir çox ziyalılar nəsli yetirmişdir. Bu nəslin yetişməsində İrəvan Müəllimlər Seminariyasının rolu müstəsnadır. 37 ilə qədər fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda İrəvan gimnaziyası və Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır.

Əzəli Azərbaycan torpaqlarındakı həmyerlilərimizin tarixi taleyinin bir parçası olan İrəvan Müəllimlər Seminariyası böyük simaların yetişdirilməsində əvəzsiz rol oynamışdır. İrəvanda işləyən görkəmli Azərbaycan ədəbiyyatşünası və maarif xadimi Firudin bəy Köçərlinin İrəvanı ülamalar, fazillər və şairlər şəhəri adlandırması təsadüfi deyildi. Bura həqiqətən böyük ədiblərin, mütəfəkkirlərin yetişdiyi bir məkan olaraq tariximizdə iz salıb.

***Zümrüd BAYRAMOVA***

# "Bakcell" jurnalist xanımları 8 Mart münasibətilə təbrik edib

İnnovasiya və sürət lideri "Bakcell" jurnalist xanımları 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib. Şirkət 30-dan çox media nümayəndəsini bir araya toplayaraq, səmimi və qeyri-rəsmi görüş təşkil edib.

Görüşdə "Bakcell"in Korporativ Kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova media sahəsində peşəkarlığı, obyektivliyi və şəffaf informasiyanın yayılmasını təşviq edən bütün xanımları təbrik edərək bildirib:

"Qadınların cəmiyyətdəki rolu və uğurları bizi ilhamlandırır. "Bakcell" olaraq biz qadınların peşəkar və şəxsi inkişafına dəstək verməyi prioritet hesab edirik. Onların potensialını reallaşdırması, yeni imkanlar qazanması və öz bacarıqlarını daha da inkişaf etdirməsi üçün daim yanlarında olmağa hazırıq".




Həmçinin, tədbirdə xanımlar üçün floristika üzrə master klass keçirilib. Onlar güllərlə kompozisiya qurmağın incəliklərini öyrənib, öz unikal buketlərini hazırlayaraq kreativ yanaşmalarını nümayiş etdiriblər.

Qeyd edək ki, "Bakcell" yarandığı gündən media nümayəndələri ilə sıx əməkdaşlıq edərək, onların fəaliyyətini dəstəkləməyə və jurnalistlərin peşəkar inkişafına töhfə verməyə davam edir.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək innovativ, keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir. "Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# İğdır-Naxçıvan qaz kəməri Azərbaycan-Türkiyə qardaşlığını daha da möhkəmləndirəcək

Bu gün dünyada elə bir fakt göstərilə bilməz ki, Azərbaycanla Türkiyə kimi bir-birinə yaxın, mehriban, səmimi, qardaşlıq münasibətlərinə malik iki dövlət olsun. Əlaqələrin yüksək səviyyədə inkişafı dünyanın əksər xalqları və dövlətləri üçün nümunəyə, misallara çevrilib. Təbii ki, iki qardaş ölkə arasında əlaqələrin möhkəm əsaslar üzərində qurulmasında və daha da möhkəmlənməsində təkcə eyni soykökünə, dilə, dinə, mədəniyyətə və dəyərlərə malik olmağımız kifayət etməyib, həm də bu münasibətlərin həqiqi qardaşlıq əlaqələri səviyyəsinə yüksəlməsində hər iki dövlətin işıqlı insanlarının, liderlərinin aydın zəkası, müdirik siyasətləri müstəsna rol oynayıb. Türkiyənin böyük öndəri Mustafa Kamal Atatürkün dediyi "Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" çıxışlarında söylədiyi fikirlər Türki-Azərbaycan dostluğunu və qardaşlığını dönməz və davamlı edib. Bu gün Azərbaycan-Türkiyə münasibətləri qardaşlıq prinsipinə əsaslanır. İki dost, qardaş ölkə arasında siyasi, iqtisadi-ticarət, humanitar, hərbi və digər sahələrdə ən yüksək zirvədədir. Hər iki ölkə beynəlxalq müstəvidə də bir-birini birmənalı olaraq dəstəkləyir. 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması əlaqələrin zirvə nöqtəsi oldu. Şuşa şəhərində məhz Milli Qurtuluş Günündə, Qars müqaviləsindən 100 il sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin dövlət başçısı Rəcəb Təyyib Ərdoğan arasında Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair imzalanan Şuşa Bəyannaməsinin özünəməxsus tarixi, hüquqi və siyasi əhəmiyyəti var. Şuşa Bəyannaməsi iki dost və qardaş ölkə arasında 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə, eləcə də Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanır.



*Eldar İbrahimov*
*YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri*

## Türkiyə və Azərbaycan milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər

İki dost, qardaş ölkələr arasında imzalanan Şuşa Bəyannaməsində qeyd olunduğu kimi, öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən qardaş dövlətlər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər. Bəyannamədə əks olunan "Türkiyə Respublikası və Azərbaycan Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər" prinsipi tarixin yenə təkrarlanmaması üçün iki ölkənin əməkdaşlıq proseslərinin sərhədlərini göstərir. "Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər" - bu, iki ölkə arasındakı münasibətləri pozmaq cəhdlərinin qarşısını almaqda hər iki ölkənin müstəqil dövlət olaraq öz seçimlərini etmə iradəsinə sahib olması kimi anlaşılmalıdır. Bəyanamə də sülhə və daxili təhlükəsizliyə xüsusi önəm verilir. Qeyd olunur ki, tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər.

## "Ümid" körpüsünün salınması Naxçıvanın sosial-iqtisadi həyatı üçün əhəmiyyətli rol oynadı

Mövcud faktlara istinadən demək olar ki, son illər Azərbaycan-Türkiyə arasındakı iqtisadi əlaqələr, xüsusilə enerji sahəsindəki əməkdaşlıqla daha da güclənib. 2023-cü ildə Azərbaycan və Türkiyə arasında qarşılıqlı ticarət dövriyyəsi 8 milyard ABŞ dolları olub. Ötən il də artım dinamikası davam edib, Azərbaycanın Türkiyə iqtisadiyyatına etdiyi yatırımların həcmi isə 20 milyard dolları ötüb. Bu rəqəmin gələcəkdə daha da artacağı gözlənilir. Azərbaycan Cənubi Qafqazın aparıcı enerji təchizatçısı olaraq Türkiyə vasitəsilə Avropaya enerji tədarükü edir. Bu sahədəki əməkdaşlıq xüsusilə 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri ilə dərinləşib. Bu layihələr yalnız iqtisadi deyil, eləcə də siyasi əhəmiyyətə malikdir. Həm də birmənalı şəkil də qeyd etmək olar ki, layihələrin icrası Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Söz yox ki, Türkiyənin dəstəyi və köməyi sayəsində Naxçıvan Muxtar Respublikası blokada şəraitində vəziyyətdən çıxmağa və əhalinin bir sıra üzləşdiyi problemlərinin aradan qaldırılmasına nail ola bilib. Təbii ki, Naxçıvanın inkişafında, Türkiyə ilə geniş iqtisadi, sosial əlaqələrin qurulmasında Ulu Öndər Heydər Əliyevin müstəsna rolu olub. Məhz 1990-cı illərin əvvəllərində Ümummilli Lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik etməyə başladıqdan sonra Naxçıvan ağır, çətin problemlərini həll etməyə müvəffəq oldu. Ulu Öndərimiz Heydər Əliyevin müdirik siyasəti və fəaliyyəti nəticəsində 1992-ci il mayın 28-də Araz çayı üzərində Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələrini birləşdirən 11 aşırımlı və "Ümid", "Həsrət" adlanan körpünün tikilib istifadəyə verilməsinə nail olundu. "Ümid" körpüsünün salınması blokada şəraitində olan Naxçıvanın sosial-iqtisadi həyatı üçün əhəmiyyətli rol oynadı. "Ümid" körpüsünün açılış mərasimində çıxış edən Ulu Öndər Heydər Əliyev demişdir: "Bu gün bu qocaman Araz çayı üzərində, qədim türk dünyasında, Azərbaycan torpağında böyük bir tarixi hadisə baş verir. Türkiyə ilə Azərbaycan arasında "Ümid" körpüsü, "Həsrət" körpüsü açılır. Biz azərbaycanlılar, türklər əsrlər boyu Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, diləklərimiz həyata keçibdir. Naxçıvan ilə, Azərbaycan ilə Türkiyəni bağlayan nəhəng bir körpü tikilmişdir". Mərasimdə iştirak edən Türkiyənin Baş naziri Süleyman Dəmirəl isə çıxışında körpünün salınmasının tarixi hadisə olduğunu bildirdi: "Bu gün burada cərəyan edən hadisə tək bir körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biriylə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir. Bu coşqunluğu anlaya bilmək lazımdır. Bu, bir birlik, milli coşqunluqdur... Qardaşlıq, dostluq bundan sonra daha da sıx olacaqdır. Türkiyə ilə Azərbaycan, Naxçıvan arasında əlaqələr genişlənəcək, adamlar bir-biri ilə yaxınlaşacaqdır. Bu körpü təkcə Azərbaycanı və Türkiyəni birləşdirmir, bu, Avropa ilə Asiya arasında körpüdür".

## İğdır-Naxçıvan qaz kəməri vasitəsi ilə Muxtar Respublika enerji təhlükəsizliyini uzun illər təmin edəcək

Dahi Öndərimiz Heydər Əliyevin Naxçıvanın enerji daşıyıcıları ilə yüksək səviyyədə təmin olunması istiqamətində göstərdiyi fədakarlığı, müdirik siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirir. Martın 5-də İğdır-Naxçıvan qaz kəmərinin istismara verilməsi buna daha bir əyani sübut ola bilər. Qaz kəmərinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan videobağlantı formatında iştirak ediblər. Mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirdi ki, bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə nəhəng layihələr reallaşdırır: "Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda, Avrasiyanın enerji xəritəsini dəyişdirdi. Bu gün Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun təxminən yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir. Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Çünki Azərbaycandan gələn qaz Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürülərək, artıq Naxçıvanı da bu problemdən xilas etmiş olacaqdır".

Prezident İlham Əliyev qürur hissi ilə qeyd etdi ki, bizim birgə həyata keçirdiyimiz enerji layihələrimiz, eyni zamanda, nəqliyyat layihələrinin reallaşmasına da imkan verdi: "Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir, həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün. Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir. Türk dünyasının birləşməsi yolunda əziz Qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm Türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yarandı. Azərbaycan da hər zaman Türk dünyasının birləşməsinə çox böyük önəm verirdi və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmirdi. Bugünkü mərasim bir daha Türkiyə-Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür. Əminəm ki, Naxçıvanda yaşayan 500 minə yaxın soydaşımız bu gün gözəl Ramazan ayında bu mərasimi də bayram kimi qeyd edəcək. Bütün bu işlərdə iştirak etmiş yoldaşlarımıza, dostlarımıza öz adımdan təşəkkürümü bildirirəm. İnşaat işləri qısa müddət ərzində, cəmi bir ildən bir qədər çox çəkdi və biz artıq bu gözəl mərasimdə iştirak edirik".

İğdır-Naxçıvan qaz boru kəmərinin açılış mərasimində çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi ki, "Bir millət, iki dövlət" şüarı ilə formalaşan qardaşlıq münasibətlərimizdə hər sahədə böyük irəliləyişlər əldə edirik : "Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Şübhəsiz ki, bu əməkdaşlıqlarımız arasında bir çox layihə ilə taclandırdığımız enerji sektoru başda yer alır. Bəzilərinin xəyal hesab etdiyi Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri kimi, "Şahdəniz" yatağının və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha irəliyə aparmağa nail olduq. Anadoludan keçən təbii qaz boru kəməri - TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik.Bu gün İlham qardaşımla birlikdə bu əməkdaşlığa yeni bir layihəni də əlavə etməkdən böyük məmnunluq duyuruq. Bir azdan açılışını edəcəyimiz İğdır-Naxçıvan təbii qaz boru kəməri enerji sahəsində daha əvvəlki strateji təşəbbüslərimizi tamamlayacaq, həmçinin Naxçıvan ilə ortaq taleyimizin bir nişanəsi olacaq. BOTAŞ tərəfindən inşa edilən 80 kilometr uzunluğunda, gündəlik 2 milyon kubmetrə qədər nəqletmə qabiliyyətinə malik bu kəmər xüsusilə Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il müddətində təmin edəcək. Beləliklə, Naxçıvanın enerji təhlükəsizliyini uzun illər təmin edəcək bir layihəni qardaşımla birlikdə ölkələrimizə qazandırmış oluruq".

Bir sözlə, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı yeni-yeni layihələrin icrası ilə daha da inkişaf edir. İğdır-Naxçıvan qaz boru kəmərinin açılışı hər iki dövlətin əlaqələrinin möhkəmlənməsinə, qarşılıqlı faydalı münasibətlərin dərinləşməsinə, əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına təkan verəcək.

# Dünya ticarət müharibəsi

Dünya ölkələri yeni sınaq mərhələsinə qədəm qoyur. ABŞ-ın yeni prezidentinin gəlişindən sonra münasibətlərdə qeyri-sabitlik, hətta böyük müharibənin başlanması ehtimalı hər keçən gün artır. Kanadanın baş naziri Castin Trüdo bildirib ki, hökumət ABŞ-ın Kanada mallarına yüksək rüsumlar tətbiq etməsi ilə bağlı Ümumdünya Ticarət Təşkilatına iddia qaldırıb. Ottava bu vəziyyəti ABŞ, Meksika və Kanada arasında üçtərəfli razılaşma (USMCA) vasitəsilə həll etməyə çalışacaq. Bundan əvvəl baş nazir Amerika mallarına cavab olaraq 25 faizlik rüsumların tətbiq ediləcəyini açıqlamışdı. ”İndi mən konkret bir amerikalıya birbaşa müraciət etmək istəyirəm. Donald, cəmi səkkiz il birlikdə işlədik, böyük işlər gördük. ”Wall Street Journal ilə razılaşmaq mənim vərdişim deyil, amma Donald, onlar qeyd etdilər ki, sən çox ağıllı adamsan”, - Castin Trüdo mətbuat konfransında deyib. ”Bu gün ABŞ Kanadaya qarşı ticarət müharibəsinə başladı” deyib. Kanadanın baş naziri yaxın vaxtlarda Donald Trampla danışıqlar aparacağına ümid etdiyini bildirib.

Fevralın əvvəlində ABŞ prezidenti Meksika, Kanada və Çindən gələn mallara gömrük rüsumlarının tətbiq edilməsi haqqında sərəncam imzalayıb. Kanada ABŞ-la sərhədini möhkəmləndirmək və narkotik ticarəti ilə mübarizə üçün yeni öhdəliklər götürmək üçün 1,3 milyard dollarlıq planı həyata keçirəcəyini vəd edərək tədbirin gecikməsini təmin etdi. Artıq rüsumlar qüvvəyə minib.

## ABŞ-ın tarifləri qlobal bazarları sarsıdıb

ABŞ-ın üç ən böyük ticarət tərəfdaşına tətbiq edilən tariflər birjada çöküşə səbəb olub. Avropada əsas səhmlərin Stoxx Europe 600 indeksi 0,9%, Almaniyanın ixracatçılar üçün vacib olan Dax indeksi isə 1,5% ucuzlaşıb. İstehsal prosesi ABŞ sərhədlərini dəfələrlə keçə bildiyinə görə ən həssas olan avtomobil istehsalçıları, Volkswagen 2,2 faiz, Stellantis isə 4 faiz ucuzlaşıb.

## Çin-Aİ dəmir yolu xətti

Çin Dəmir Yolu Konteyner Nəqliyyatı (CRCT) ilə birgə həyata keçirilən layihə çərçivəsində Çindən gələn konteyner qatarları Türkmənistan, Qazaxıstan, İran və Türkiyə ərazisindən keçərək oradan da Avropa ölkələrinə keçəcək. Yeni marşrut üzrə ilk qatar Çinin Çenqdu şəhərindən Polşanın Lodz şəhərinə yola düşüb. Çin Rusiyadan yan keçməklə Mərkəzi Asiya ölkələri üzərindən daha iki dəmir yolu layihəsi hazırlayır.

ABŞ prezidenti Donald Tramp martın 4-də Çin mallarına rüsumları 10%-dən 20%-ə qaldırıb. Eyni zamanda, eyni tarixdən Meksika və Kanadadan gələn tədarüklərə 25 faizlik tariflər qüvvəyə minib. Bu qərarların təsirinə məruz qalan bütün ölkələr artıq cavab tədbirləri görməyə hazır olduqlarını bəyan ediblər. Bu arada yeni ticarət müharibəsinin nəticələri ABŞ-ın özü üçün xüsusilə həssas ola bilər: ekspertlərin proqnozlarına görə, ölkədə inflyasiya əhəmiyyətli dərəcədə yüksələ və iqtisadi artım yavaşlaya bilər. Tramp Çindən gələn mallara rüsumları iki dəfə artırıb, indi 20%-dir. Məhdudiyyətlərin rəsmi izahı ölkəyə ”sintetik opioidlər, o cümlədən fentanil” axını səbəbindən ABŞ-ın milli təhlükəsizliyinə təhdiddir. Rüsumların bu artımı hər iki ölkəyə ciddi təsir göstərəcək: 2024-cü ilin sonunda onların ticarət dövriyyəsi 688 milyard dollar təşkil edib, bu dövrdə Çindən ixrac isə təxminən 5% artaraq 525 milyard dollara çatıb.

ABŞ üçün yeni məhdudiyyətlər o deməkdir ki, bir çox malların qiymətlərində sürətli və nəzərəçarpacaq artımın praktiki olaraq alternativi yoxdur. Belə gözləntilərə əsasən, ABŞ-da istehlakçı inamı indeksi (xərclərin aparıcı göstəricisi) ardıcıl üçüncü aydır ki, aşağı düşür - fevralda yanvarda 104,1 bənddən sonra 98,3 bənd təşkil edib. Əks tariflərdən əlavə problemlər yarana bilər: martın 10-dan Çin onları ABŞ-dan bəzi kənd təsərrüfatı məhsullarına tətbiq edəcək: toyuq, buğda, qarğıdalı və pambıq tədarükünə 15 faiz, sorqo, soya, mal əti, donuz əti, meyvə, tərəvəz və süd məhsullarına 10 faiz tariflər tətbiq ediləcək.




Qeyd edək ki, 2024-cü ildə Çin ABŞ-dan 29,3 milyard dollar dəyərində kənd təsərrüfatı malları idxal edib ki, bu da 2023-cü illə müqayisədə 14% azdır. Çin cənab Trampın ilk dövründən bəri bu cür məhsulların alışını davamlı olaraq diversifikasiya edir və öz istehsalını da artırır. Məsələn, Braziliyadan satınalmalar sayəsində ABŞ-ın ümumi Çin soya idxalındakı payı 2016-cı ildəki 40%-dən 2024-cü ildə 21%-ə düşüb. Eyni zamanda, ABŞ-ın özü üçün Çin bazarı əsas bazarlardan biri olaraq qalır. Cari tədarük həcmini saxlamaq üçün ABŞ yeni ixrac bazarlarına daxil olmalı və köhnə bazarlara tədarükləri genişləndirməli olacaq.

## Ottavadan Vaşinqtona çağırış

Çinə qoyulan məhdudiyyətlərə əlavə olaraq, Kanada və Meksikadan gələn tədarüklərə 25 faizlik tariflər martın 4-dən qüvvəyə minəcək. Hələ fevral ayında söz verilərək, danışıqlar zamanı yığılan ziddiyyətləri həll etmək üçün bir ay təxirə salındılar. Lakin ABŞ-la ticarət balanssızlığını belə qısa müddət ərzində aradan qaldırmaq faktiki olaraq mümkün olmadığından tariflərin tətbiqi gözlənilirdi. Kanada artıq 20 milyard dollar dəyərində Amerika mallarına 25 faizlik tariflərin dərhal geri qaytarılacağını, üç həftə ərzində 80 milyard dollardan çox idxalın məhdudiyyətlərə məruz qalacağını elan etdi. Meksika cavab tədbirlərini daha sonra elan edəcək.

Peterson Beynəlxalq İqtisadiyyat İnstitutunun hesablamalarına görə, Meksika və Kanadada tətbiq edilən məhdudiyyətlər ərzaq, nəqliyyat vasitələri və ehtiyat hissələrinin bahalaşması ilə nəticələnəcək. Ticarət məhdudiyyətləri fonunda Amerika istehsalçıları da qiymətləri qaldıracaqlar. Fevral ayında ISM Manufacturing biznes aktivliyi indeksi yanvarda 50,9 punktdan 50,3 bənd təşkil edib, qiymət indeksi isə 54,9 bənddən 62,4-ə yüksəlib. Federal Ehtiyat Sistemi də tariflərin tətbiqi ilə əlaqədar inflyasiyanın mümkün sürətlənməsi barədə xəbərdarlıq edib. Belə artan narahatlıqlar fonunda, əsas faiz çox güman ki, mart ayında azalmayacaq. Üstəlik, məhdudiyyətlər tam qüvvədə qalarsa, FED-in monetar siyasətinə dönüş də mümkündür.

Donald Trampın qərarları artıq neft bazarına nəzərəçarpacaq dərəcədə təsir edir: ABŞ və Çin rüsumların ləğvini elan etdikdən sonra Brent neftinin qiyməti çərşənbə axşamı 2024-cü ilin oktyabr ayının əvvəlindən bəri ilk dəfə olaraq bir barel üçün 70 dollara düşüb. Analitiklər tariflərdən təsirlənən ölkələrdə işgüzar fəallığın azalacağını proqnozlaşdırır və enerji resurslarına tələbatın daha da azalacağını gözləyirlər.

## Pekin Amerika ilə müharibəyə hazırdır

Çin Xalq Respublikası Dövlət Şurasının Baş naziri Li Çianqın parlamentin çərşənbə günü açılmış iclasında məruzəsi ölkə rəhbərliyinin iqtisadiyyatın uğurlu inkişafına əmin olduğunu göstərib. Onun artımı 2025-ci ildə 5% təşkil edəcək. Tayvan boğazında və Cənubi Çin dənizində gərginliyin artması ilə əlaqədar büdcədə müdafiə xərclərinin 7,2% artaraq 1,78 trilyon yuana (246 milyard dollar) çatdırılması nəzərdə tutulub. Ölçüsünə görə Amerikadan çox kiçikdir. Amma Pentaqonun fikrincə, rəsmi rəqəmlər Çinin hərbi xərclərinin real mənzərəsini əks etdirmir. Onlar 40% yüksəkdir. Üstəlik, Çin dünyada ən çox dəniz gəmisinə sahibdir.

Təbii ki, Çin mediası ÇXR silahlı qüvvələrinin yalnız ölkəni qorumaq məqsədi daşıdığını və heç kim üçün təhlükə yaratmadığını vurğulayır. Xinhua xəbər verir ki, hərbi büdcə son 10 ildə ”birrəqəmli” artıb. Çinli hərbi ekspertlər deyir ki, artım orta səviyyədədir və ölkənin maraqlarını müdafiə etmək üçün lazımdır, başqa bir şey deyil. Son bir ildə silahlı qüvvələrin müasirləşdirilməsi sahəsində üç uğur əldə edilib. May ayında 40 döyüş təyyarəsi, bir neçə kəşfiyyat təyyarəsi, nəqliyyat təyyarələri, helikopterlər və dronlardan ibarət hava qrupunu daşıya bilən ”Fujian” təyyarədaşıyan gəmisində dəniz sınaqları başlayıb. Dekabr ayında dünyada ilk elektromaqnit katapultlarla təchiz olunacaq Sıçuan desant gəmisində işlərə başlanılıb. Və havada, Airshow China sərgisində tamaşaçıların iştirakı ilə gizli texnologiyadan istifadə edərək hazırlanmış yeni tipli J-35A qırıcısı havaya qalxdı. Bu təyyarənin seriya istehsalına 2025-ci ildə başlanacaq.

Şərqi Asiya və Cənubi Çin dənizində vəziyyətin pisləşməsi ilə əlaqədar Çin Xalq Azadlıq Ordusu döyüş hazırlığını artırmalıdır. Beləliklə, Filippin ”Çinə məxsus” adalar yaxınlığında təxribatları gücləndirib və hətta ABŞ-ın ”Tayfun” orta mənzilli raketlərini ölkə ərazisində yerləşdirməsinə razılıq verib. Dünya Bankının məlumatına görə, 2023-cü ildə orta qlobal müdafiə xərcləri ÜDM-in 2,4%-i, ABŞ-da isə 3,4%-i təşkil edib. AP agentliyinin məlumatına görə, Çinin hərbi büdcəsinin real rəqəmləri rəsmi rəqəmləri 40% üstələyir və digər büdcə maddələri arasında bölüşdürülür. Çin təkcə ABŞ-la münasibətlərin pisləşməsi fonunda deyil, Şərqi Çin dənizindəki adalarla bağlı mübahisəsi olan Yaponiya ilə də hərbi xərcləri artırmağa məcburdur.

”The New York Times” yazır ki, Çin prezidenti Si Cinpin ABŞ prezidenti Donald Trampın tarifləri qaldırdıqdan sonra onunla güzəştə gedən Kanada və Meksika liderlərindən fərqli olaraq, möhkəm dayanıb və ABŞ-ın kənd təsərrüfatı məhsullarına yüksək rüsumlar tətbiq etməklə amerikalılara cavab verib. ABŞ-lı Çin eksperti Jude Blanchett deyir ki, Pekin hələ də ticarət müharibəsindən və ya ”daha pis bir şeydən” qaçmaq üçün Trampla razılığa gəlməyə ümid edir. Lakin Çinin Vaşinqtondakı səfirliyi bildirib ki, ”Çin geri çəkilməyəcək, ticarət müharibəsinə və ya hər hansı başqa müharibəyə hazırdır”.

**V.VƏLİYEV**

# Azərbaycanın beynəlxalq arenada artan nüfuzu

## Prezident İlham Əliyev: "D-8 ölkələri ilə Azərbaycanın qarşılıqlı milli maraqlara əsaslanan səmərəli konstruktiv ikitərəfli münasibətləri mövcuddur"

***Üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edən və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir. Ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan Azərbaycanın D-8-in təməl prinsiplərinin qorunmasında, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacağı şübhəsizdir.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi İsiaka Abdulqadir İmamı qəbul edərkən, ölkəmizin D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması ilə bağlı qəbul edilən yekdil qərara görə üzv dövlətlərə minnətdarlığını bildirən dövlət başçımız tamhüquqlu üzv kimi Azərbaycanın bu təsisatın inkişafı ilə bağlı səylərini əsirgəməyəcəyini vurğulayıb. Dövlətimizin başçısı D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı yaranandan bəri ona qoşulan ilk ölkənin Azərbaycan olmasından məmnunluğunu bildirib. Prezident İlham Əliyev bu qərarı, eyni zamanda, üzv ölkələr tərəfindən Azərbaycana göstərilən hörmət və həmin ölkələr arasında böyük dostluğun nümunəsi kimi qiymətləndirib. Dövlətimizin başçısı qeyd edib ki, D-8 ölkələri ilə Azərbaycanın qarşılıqlı milli maraqlara əsaslanan səmərəli konstruktiv ikitərəfli münasibətləri mövcuddur. Azərbaycanın aidiyyəti qurumları ilə təşkilat arasında əlaqələrin yaradılmasının önəminə toxunan dövlətimizin başçısı onun coğrafiyasının Xəzər dənizi və Qafqaz regionuna genişlənməsinin əhəmiyyətini vurğulayıb. Prezident İlham Əliyev bu xüsusda təşkilatın bölgəyə yaxınlaşmasında regionun mühüm ölkəsi kimi Azərbaycanın rolunu qeyd edib.

Xatırlatmaq yerinə düşər ki, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında qoyulub. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Katibliyi İstanbul şəhərində yerləşir. Təşkilatın yeni hədəfləri "2020-2030 illər yol xəritəsi" sənədində əks olunub. Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 21 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilib. Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır.

### MÜTƏRƏQQİ CƏHƏTLƏRİ İLƏ FƏRQLƏNƏN İNKİŞAF MODELİ

Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Bu gün Azərbaycan düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Prezident İlham Əliyevin güclü siyasi iradəsi sayəsində Azərbaycanın bütün dünya miqyasında nümunəvi sayılan və bir sıra mütərəqqi cəhətləri ilə fərqlənən yeni keyfiyyətli inkişaf modeli formalaşıb. Həyata keçirilən davamlı islahatlar sayəsində Azərbaycan ötən müddətdə ölkənin iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı addımlar atıb. Ölkədə müasir çağırışlarla səsləşən, kreativ yanaşmalara geniş meydan verən sərbəst bazar iqtisadiyyatına transformasiya prosesi uğurla yekunlaşıb. Ötən dövrdə neft gəlirləri hesabına ölkənin maliyyə imkanlarının genişlənməsi fonunda aktiv şəkildə əsas kapitala kifayət qədər irihəcmli investisiyalar yönəldilib. Azərbaycanın son illərdə həyata keçirdiyi iqtisadi siyasət və islahatlar ölkəni regionda lider dövlətlərdən birinə çevirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə regionda həyata keçirilən bütün beynəlxalq və irimiqyaslı layihələr Azərbaycanın milli maraqları nəzərə alınmaqla reallaşır. Bu gün Prezident İlham Əliyevin qüdrətli rəhbərliyi ilə Azərbaycan dünyada, nüfuzlu ölkəyə mərkəzinə çevrilib.




### AZƏRBAYCAN TƏŞKİLATIN DAHA DA İNKİŞAF ETDİRİLMƏSİNƏ ƏSASLI TÖHFƏSİNİ VERƏCƏK

Azərbaycanın növbəti diplomatik uğuru - D-8 təşkilatına üzvlük ölkəmizin müstəqillik tarixində beynəlxalq diplomatik uğurlar sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yadda qalıb. Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Bu, D-8 yarandığı gündən təşkilatın sıralarının ilk genişlənməsi kimi əlamətdardır. Üç qitəni əhatə edən, 4 trilyon ABŞ dollardan artıq ÜDM-ə malik, 130 milyard ticarət dövriyyəsi həyata keçirən, üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60%-ni təşkil edən (ümumi əhali 1,2 milliardan artıqdır) və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir. Bu, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. Müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xarici siyasət strategiyası bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əminliklə deyə bilərik ki, Ulu Öndərin hazırladığı mükəmməl xarici siyasət strategiyası Azərbaycanı bütün regional məsələlərdə söz sahibi olan müstəqil dövlətə çevirdi. Ümummilli Liderin siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu diplomatik fəaliyyəti nəticəsində Azərbaycanın dünya birliyindəki nüfuzu daha da artdı. Bu gün regiondakı hər hansı bir strateji əhəmiyyətli layihə Azərbaycanın rəyi olmadan gerçəkləşə bilməz.

D-8-in dünyada 1,2 milyard əhalisi olan üzv dövlətləri əhatə edən böyük iqtisadi və ticari potensiala malik təsisat olduğunu deyən Baş katib onun fəaliyyətinin əsasında ölkələr arasında iqtisadi-ticari münasibətlərin inkişafının dayandığını qeyd edib. Qonaq əminliyini bildirib ki, Azərbaycan təşkilatın daha da inkişaf etdirilməsinə, gündəlikdə duran məsələlərin həyata keçirilməsinə öz əsaslı töhfəsini verəcək.

Görüşdə D-8 çərçivəsində enerji, iqlim fəaliyyəti, ticarət, kiçik və orta sahibkarlığın inkişafı, gənclər, media və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

### QLOBAL SƏHNƏDƏ DAHA ƏDALƏTLİ İQTİSADİ DÜZƏN

Qeyd edək ki, D-8-in əsas məqsədi üzv ölkələr arasında ticarət əlaqələrini artırmaq, iqtisadi inkişafı təşviq etmək və ortaq problemlərə qarşı kollektiv həll yolları tapmaqdır. Təşkilat həmçinin, dünya iqtisadiyyatında inkişaf edən ölkələrin daha güclü və əhəmiyyətli bir mövqe tutmasına kömək etməyi hədəfləyir. D-8 təşkilatı, üzv ölkələr arasında birgə ticarət, investisiya və texnoloji əməkdaşlıq yaratmaq üçün müxtəlif proqramlar həyata keçirir. Bu ölkələr arasında iqtisadi əlaqələrin artırılması və inkişaf etməkdə olan ölkələrin dünya bazarlarında daha böyük rol oynaması üçün təşviq edici tədbirlər görülür.

D - 8 həmçinin təhsil, mədəniyyət və sosial sahələrdə də əməkdaşlıq qurmağa çalışır, bu da üzv ölkələr arasında daha güclü bir dostluq və müştərək maraqların formalaşmasına kömək edir. Təşkilatın fəaliyyəti, inkişaf edən ölkələrin kollektiv gücünü nümayiş etdirərək qlobal səhnədə daha ədalətli bir iqtisadi düzən qurmağı məqsəd qoyur.

Ölkəmizin D-8 üzvlüyü bir daha sübut edib ki, Azərbaycan hazırda sürətlə inkişaf edən, davamlı ictimai-siyasi sabitliyə malik, yüksək iqtisadi göstəricilərə nail olan və dünya ictimaiyyətinin rəğbətini qazanan dövlətlərdəndir. Bu çərçivədə həmçinin geniş regionumuzda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət və bir sıra digər vacib istiqamətlərdə əlaqələrinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Geosiyasi mövqeyi, geniş iqtisadi potensialı, strateji tranzit məntəqələri və inkişaf etmiş nəqliyyat infrastrukturu ilə regional mərkəzlərdən biri kimi seçilən Azərbaycanın üzvlüyünün təşkilatı daha da möhkəmləndirəcəyinə əminlik yaradır. Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və digər layihələr Azərbaycanı qlobal iqtisadiyyatda özünəməxsus iqtisadi modelə malik ölkə kimi səciyyələndirir. Bu layihələr regional təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın enerji diplomatiyası regional təhlükəsizliyə, beynəlxalq əməkdaşlığa və milli maraqlara xidmət edir.

### İSLAM HƏMRƏYLİYİ İDEYALARINA SADİQLİK

Azərbaycanın D-8-ə qoşulması, ölkəmizin multilateralizm siyasətinə sadiqliyini bir daha nümayiş etdirir. Bu, Azərbaycanın təşkilat çərçivəsində həm çoxtərəfli, həm də ikitərəfli formatda əlaqələrinin inkişafına təkan verəcək. D-8-ə üzvlük və İslam Əməkdaşlıq Təşkilatına üzvlük, ölkəmizin xarici siyasətində bir-birini tamamlayan elementlərdir. Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Bu gün Azərbaycan islam həmrəyliyi ideyalarına və mədəniyyətlərarası dialoq ənənələrinə sadiqdir. Azərbaycan öz əqidəsinə, milli dəyərlərinə sadiq bir dövlətdir. Azərbaycan islami dəyərlərə, islam dininə bağlı dövlətdir. Bunun nəticəsidir ki, müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır. Dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir.

Tarix boyu Şərq ilə Qərb arasında körpü rolu oynamış, İslam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindənbiri olan Azərbaycanın D-8 üzvlüyü eyni zamanda, İslam həmrəyliyinin möhkəmlənməsində, İslam dəyərlərinin dünyada təbliğində və İslamofobiya ilə mübarizə sahəsində böyük töhfə olacaq.

***Zümrüd BAYRAMOVA***

# Dmitri Solonnikov: "Ermənistanın təklifləri Azərbaycanı qane etmir"

***Müasir Dövlət İnkişafı İnstitutunun (Rusiya) direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Bakı və İrəvan arasında geosiyasi reallıqları nəzərə almaqla sülh razılaşması imzalanmasının perspektivləri barədə fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Dmitri Vladimiroviç, Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması məsələsində heç bir hərəkət yoxdur. Bu yaxınlarda Paşinyan bəyan edib ki, İrəvan sülh müqaviləsinin razılaşdırılmamış 2 bəndi ilə bağlı Ermənistanın təkliflərinə Bakıdan cavab alıb. Ermənistan baş nazirinin bəyanatına görə, tərəflər bu məqamlarda razılığa gələ bilməyiblər. Amma qeyd etdi ki, bu, guya, iş prosesidir...***





- İki məqam üçüncü ölkə qüvvələrinin Azərbaycan və Ermənistan sərhədlərinə yerləşdirilməməsinə aiddir. Ermənistan bu məntiqi yalnız sərhədin delimitasiya olunmuş hissələrinə tətbiq etməyi təklif edir. Ermənistanın baş nazirinin şərhlərinə əsaslansaq, bu yanaşma Bakını qane etmir. Razılaşdırılmayan ikinci məqam isə beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı qarşılıqlı iddialardan (Ermənistanın təklifi ilə) imtina edilməsinə aiddir. Azərbaycan da, görünür, bu məntiqlə kifayətlənmir. Bu da başa düşüləndir, çünki Ermənistan işğalçı, təcavüzkar dövlət kimi Azərbaycana çox böyük ziyan vurub. Və Ermənistanla bağlı beynəlxalq məhkəmələrdə ədalət tələb etmək Bakı üçün tamamilə adekvat və başa düşülən mövqedir.





Artıq bir neçə aydır ki, Bakı ilə İrəvan arasında danışıqlar prosesi 17 vacib məqamdan ikisinin razılaşdırılmasına yönəlib. Yalnız iki həlledici məqamın qalması o demək deyil ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi əsas mərhələyə qədəm qoyur və biz tezliklə zəfər səsləri eşidəcəyik. Əvvəla, xatırlatmaq istərdim ki, Bakının Ermənistanla münasibətlərin qurulmasına dair sülh sazişi imzalaması üçün bu məqamlardan əlavə iki şərt var. Onlar Azərbaycana qarşı ərazi iddialarının Ermənistan konstitusiyasından çıxarılmasına, eləcə də Qarabağ nizamlanması üzrə ATƏT-in Minsk qrupunun hüquqi müstəvidə ləğvinə aiddir. İkincisi, tarixin və praktikanın göstərdiyi kimi, Paşinyan Azərbaycanla sülh imzalamağa tələsmir və sadəcə guya İrəvanın hər şeyi burada və indi imzalamağa hazır olduğunu göstərir, Bakı isə guya prosesi ləngidir. Bakı razılaşmır, çünki İrəvanın təklifləri onu qane etmir.

Belə görünür ki, Ermənistan Azərbaycanın sülhlə bağlı bütün tələbləri ilə ilə razılaşmalıdır. Obyektiv olaq- 2020-ci ildə İkinci Qarabağ Müharibəsindən sonra Azərbaycan və Ermənistan arasında qüvvələr balansı hər kəs üçün tamamilə aydın idi. Belə görünür ki, öz ərazilərini haqlı və ədalətli şəkildə geri qaytaran Azərbaycan hələ də danışıqlarda güclü tərəfdir və o, İrəvanın şübhəli təklifləri ilə razılaşmır. Amma artıq müharibənin bitməsindən artıq 5 il keçib və sülh müqaviləsi hələ də imzalanmayıb. Və Paşinyan bu məsələni süründürməyi bacarır. Bu onun taktikasıdır.

Biz çoxdan deyirdik ki, Ermənistanın baş nazirinin Azərbaycanla münasibətləri normallaşdırmaq, ölkənin və xalqının tarixində yeni səhifə açacaq respublikanın rəhbəri olmaq üçün hər cür imkan var. Qonşularla razılaşmanın və iqtisadi inkişafın daha rasional səhifəsi üçün. O, 2026-cı il seçkilərində sayəsində ölkədə həyatın yaxşılaşdığı, iqtisadiyyatının yaxşılaşdığı, rifahının yüksəldiyi bir insan obrazı ilə namizəd ola bilərdi. Görünürdü ki, Paşinyan üçün müsbət və məntiqli variant tez hər şeylə razılaşmaq, sərhədləri açmaq və iqtisadi artım göstərmək, bununla da Ermənistan xalqının firavan gələcəyini təmin etməkdir. Seçki kampaniyasında deyə bilərdi ki, "görün mən nə böyük adamam, mənim sayəmdə ölkəyə pul gəldi, yollar çəkirik, ticarət üçün yeni imkanlarımız var, insanlar daha yaxşı yaşamağa başladılar. Bəli, keçmişi xatırlamaq çətindir, amma həyat indi daha yaxşılaşıb". Amma o, hələ də bunu etməyib.

Parlament seçkilərinə çox az vaxt qalıb və Paşinyan növbəti dəfə dilemma qarşısında qalıb- seçicilərin qarşısına Azərbaycanla imzalanmış sülh müqaviləsi ilə çıxmaq və ya yenidən Azərbaycanın əleyhinə getmək. Məncə, Ermənistanın yol ayrıcında olduğu bir vaxtdaİrəvandan hər şeyi gözləmək olar. Bəs Paşinyan qonşularla münaqişələrdən imtina etməyi və ölkənin inkişafına diqqəti yönəltməyi nəzərdə tutan "Real Ermənistan" konsepsiyasını işləyib hazırlasaydı? Sual olunur, o, bu seçkilərə hansı formada - zeytun budağı ilə çıxacaq, yoxsa yenidən kamuflyaj geyinib, saqqal çıxarıb, sarğılı əlinə avtomat asacaq? Hər şeyə ehtimal verilə bilər.

Siyasi strateqlər elə bir konsepsiya hazırlayacaqlar ki, Paşinyana hakimiyyətdə qalmağa davam etsin, onun bu seçkilərə gedəcəyi imic yaratmaq lazımdır; Və beləliklə, seçim iki obraz- hərbçi obrazı və ya sülhməramlı obrazı arasında olur.

Ermənistan üçün çətinliklərə əlavə odur ki, indi hər ehtimala qarşı ABŞ respublikanı dəstəkləməyəcək. Biz görürük ki, Vaşinqton bu gün Ukraynaya hərbi dəstəyi dondurduğunu elan edib. Ermənistan ABŞ-dan nə gözləməlidir? Amma Ermənistanın hələ də Aİ-də tərəfdaşları var. Və bu baxımdan Paşinyan öz kursunun perspektivinə və hakimiyyətdə qalma perspektivinə baxır. Və o, hakimiyyətdə qalmasına kömək edəcək qərarlar verəcək. Amma eyni zamanda o, yenidən yol ayrıcında dayanıb yol seçir.

***- Azərbaycanın bununla bağlı potensial kartları hansılardır?***

- Azərbaycanın təcili nəsə qərar verməyə ehtiyacı yoxdur, o, Bakının şərtləri ilə razılaşmaq üçün Ermənistana təzyiq göstərməyə davam edəcək. Düşünürəm ki, Bakı Ermənistanda növbəti seçkilərə qədər gözləyəcək. Axı o ana qədər çox şey dəyişə bilər. Əgər Ermənistan hökuməti birdən-birə dəyişərsə, əvvəlcədən sülh sazişi imzalamağın xüsusi mənası yoxdur.

Dünyada baş verən geosiyasi dəyişikliklər indi Ermənistana böyük təsir göstərəcək. Çox güman ki, ABŞ-ın dəstəyi olmayacaq. Tramp agentliyin qrantlarını bağladığı üçün USAID-dən gələn yardımın yarısının Ermənistana çatması çətin ki mümkün olsun. Bu, Paşinyan üçün ciddi zərbədir, çünki Ermənistanda əksər QHT-lər, əksər KİV-lər, onun şəxsi administrasiyasının böyük hissəsi bu qrantlarla İrəvanda oturmuşdu. Buna görə də Paşinyanın komandasında işləmək motivasiyası azalıb. Ümumiyyətlə, indi sual yaranır ki, Avropa İttifaqının aqibəti necə olacaq. Təbii ki, dünyadakı geosiyasi vəziyyət Ermənistanın mövqeyinə çox ciddi təsir göstərir.

Paşinyan seçkilər ərəfəsində daha 10 dəfə melodiyasını dəyişə bilər. Yenə də deyirəm: onun əsas vəzifəsi hakimiyyətdə qalmaqdır.

***- Ermənistanın İrəvandakı Zvartnots aeroportunda, sonra İranla, indi də Türkiyə ilə sərhəddə Rusiya sərhədçilərindən necə imtina etdiyini gördük. Bunu necə şərh edə bilərsiniz?***

- Paşinyan orada rus sərhədçilərinin olmasını özü üçün təhlükəli element hesab edir. Ona görə də onları hər yerdə "təmizləməyə" çalışır. Və potensial olaraq, o, gizli şəkildə NATO və Avropa İttifaqının nümayəndələrinə bu təhlükəsizlik sahəsini təqdim edə bilər. Amma bir daha deyirəm- reallıqda ABŞ və Qərbin qalan hissəsi arasında çəkişmələr fonunda Ermənistanın baş naziri özünü Rusiya ilə yaxınlaşmaq istəyən biri kimi göstərə bilər. Onun bu ikili dövlət xarici siyasət konsepsiyasını seçməsi səbəbsiz deyil. Amma eyni zamanda, təbii ki, Ermənistana və ölkənin hər mənada Qərb relslərinə keçməsinə ciddi Qərb dəstəyi axtarmağa davam edəcək.

***Tərcümə- Elçin Bayramlı***



# “Üçüncü dünya müharibəsi qaçınılmaz olur”

*Politoloq Aytən Qurbanovanın SİA-ya müsahibəsini təqdim edirik:*

***- Tramp Zelenskini diktator adlandırmışdı. Sonradan isə fikrini dəyişmişdi. Bu, ABŞ Ukrayna münasibətlərində hansı məqama söykənir və onlar arasında əslində nə baş verir?***

- ABŞ-Ukrayna münasibətlərini dəyərləndiririksə, Tramp administrasiyası dövründə ABŞ-Ukrayna münasibətləri kontekstində dəyərləndirə bilərik. Çünki Trampın dövründə hər dövlətə olan münasibət özünü fərqli formada göstərməyə başlayıb. Bu təzahürlər onu göstərir ki, Qrilandiyaya ərazi iddiası, Panama kanalını özünə birləşdirməklə bağlı iddialar səsləndirir. Meksika ilə bağlı fərqli iddiaları var. Bu kontekstdən qiymətləndirəndə Ukraynanın ərazi bütövlüyü, ya da Ukraynanın legitim prezidentinin diktator adlandırılması Tramp administrasiyası, ya da birbaşa Trampın dilindən çox da təəccüb doğuran məqam deyil. Düzdür, sonradan jurnalistlərin bununla bağlı ünvanladığı sualdan yayındı və bunu konkret olaraq açıqlamaqdan imtina etdi. Bir dəfə istifadə olunan ifadə artıq onun Putinə istinad edərək legitim olaraq hər hansı formada Ukraynanın rəhbəri kimi Zelenskini tanımadığını da bəyan etmiş oldu. Danışıqlar masasında Zelenskini Ukraynanın rəhbəri kimi görmək istəmədiyini göstərdi. Əslində Ağ evdə baş verənlər də bunun təzahürü idi. Onlar Zelenski ilə deyil, yeni formalaşacaq hökumətlə hər hansı bir formada






sülh danışıqlarını davam etdirmək istəyirlər. Amma indiki şəraitdə, onsuz, seçkilərin keçirilməsi mümkünsüzdür. Ya da labüd şərt deyil. Çünki hal-hazırda Zelenskinin hakimiyyətinin legitimliyi Rada tərəfindən də təsdiqləndi. Bu heç bir halda sual altına qoyula bilməz. Digər istiqamətdə baş verən hadisələr onu göstərir ki, Ukraynanın taleyi əvvəldən müəyyənləşmişdi. 24 fevral 2022-ci ildə hərbi əməliyyatlar başlayanda əgər Ukrayna Krımı, ya da Şərqi Ukraynanı geri qaytara bilməyəcəkdisə, hərbi əməliyyatların başlanmasının mənasız olduğunu hər kəs çox yaxşı bilirdi.

Onların geri qayıtmayacağını da hər kəs yaxşı anlayırdı ki, Rusiya işğal etdiyi əraziləri asanlıqla, sadəcə bəyanatlarla geri qaytaracaq dövlət deyil. Onsuz da, postsovet məkanında yeganə həll olunan münaqişə Qarabağ münaqişəsi idi. Bu da Azərbaycanın qurduğu doğru strategiya və atdığı addımlar, öz hərbi potensialı hesabına idi. Ukraynanın etmək istədiyi Qərbə arxalanaraq, Qərbə inteqrasiya yolu ilə Rusiya ilə birbaşa qarşıdurmaya getmək idi. Bunun oyun olduğu, onsuz, sonunda Ukraynanın ərazi bütövlüyünün güzəştə gediləcəyi çox aydın idi. Bu gün Ukraynanın acınacaqlı taleyi onun iştirakı olmadan həll olunur.

***- Hər kəsin diqqəti Tramp-Putin görüşüdür. Siz bu görüşdən nə gözləyirsiniz? Tezliklə müharibə dayana bilərmi, yoxsa başqa lokal münaqişlər baş verə bilər?***

- Əslində atəşkəs qaçınılmazdır. Mən də düşünürəm ki, yaxın günlərdə atəşkəsin olması ilə bağlı razılıq əldə olunacaq. Hətta Tramp administrasiyasından bəyanatlar eşidilməyə başlayıb ki, Putinlə danışıqlara gediləcək. Putinin həqiqətən də danışıqlara gedə biləcəyi yeganə şəxs Trampdır. Tramp müharibəni dayandıra bilər. Onsuz, müharibənin konteksti genişlənsə, təbii ki, üçüncü dünya müharibəsi qaçınılmaz olur. Biz Rusiya-Ukrayna müharibəsi başladığı gündən deyirdik ki, hərbi əməliyyatlara üçüncü, dördüncü tərəflər cəlb olunduğu halda bu artıq dünya müharibəsi xarakterini alacaq. Avropanın çəkindiyi də bununla bağlıdır. Onsuz, hərbi əməliyyatlara qoşulmaq niyyətində deyildi. Dəfələrlə 20, 30, 40 min ordu göndərəcəklərini dedilər, bununla bağlı müzakirələr aparıldı. Heç kim də ordu göndərmədi. Üç ildə deyilən onunla bağlı idi ki, heç kim gəlib ukraynalıların yerinə döyüşməyəcək. Heç kim Ukraynanın ərazi bütövlüyü ilə bağlı mübarizə aparmayacaq. Doğru vaxtı gözləmədən hərbi əməliyyatlara başlamağın nəticəsi ilə bağlı Ukrayna tarixdəki nəticələrdən dərs çıxarmalı idi. Birmənalı şəkildə Rusiya Ukraynanın ərazisini işğal edib. Bunu hər kəs qəbul edir, etiraf edir. Bu gün Rusiyanın işğal etdiyi ərazilərdən çıxarılması, təkbaşına Ukraynaya maliyyə dəstəyinin ayrılması, silahın verilməsi mümkün deyil. Ukraynada da yavaş-yavaş döyüşəcək insan resursu tükənir. Üç il davam hərbi əməliyyatlar yetəri qədər Ukraynanı çökdürüb. Ona görə də, sadəcə Tramp-Putin görüşü belə atəşkəsin əldə olunması ilə bağlı önəmli şərtləri irəli sürəcək.

***- Qonşunun çətirinin altında qalan torpaqsız qalar məsələsidir. Zelenski Ərdoğanla görüşdü. Eləcə də, Putinin çətirinin altında Paşinyanı misal göstərə bilərik. Ola bilər ki, bu məsələlərdə Amerika Türkiyə ilə hesablaşsın?***

- Mənim fikrimcə, Türkiyə ilə münasibətlərdə bu, Ukraynanın taleyinin həll olunmasından çox, Zelenskinin taleyinin həll olunmasına hesablanmış səfər idi. Çünki atəşkəsdən sonra Zelenskinin taleyi birmənalı qiymətləndirilmir. Bu gün ona qarşı ittihamlar yetəri qədər səsləndirilir. Bu gün onun yanında olan Avropa əgər atəşkəs imzalanarsa, həqiqətən də, onun təhlükəsizlik zəmanətini verəcəkmi? Bu, ciddi sual yaradır. Düşünürəm ki, Türkiyəyə səfəri və Ərdoğanla görüşü, bu şəklin xüsusi olaraq paylaşılması bunu hədəfləyən istiqamətlərdən biridir. Ukraynanın taleyi ilə əlaqədar dəyərləndirsək, artıq həll olunub. Türkiyənin bu formada Amerika ilə, ya da digər ölkələrlə münasibətlərini pozacağını düşünmürəm. NATO çərçivəsində də Türkiyənin kifayət qədər önəmli tərəfdaşlığı var. Orta Şərqdə də atdıqları önəmli addımlar var. Türkiyənin bu gün əsas hədəfi dövlət təhlükəsizliyinin, xarici-siyasi, regional hədəflərinin təmin olunması ilə bağlıdır. Təbii ki, Ukraynanın ərazi bütövlüyünə dəstək verir, təbii ki, Rusiyanın işğal faktını ilk gündən səsləndirən dövlətlərdən biridir.

***- Barışıq müqaviləsi və sülh məsələləri nələrdir?***

- İlkin şərtlər onsuz, seçkilərin keçirilməsi, atəşin dayandırılması kimi altı bənd var idi. Bu bəndlərə nəzər yetirəndə, ərazi bütövlüyünün tam bərpa olunması, Rusiyanın işğal etdiyi ərazilərdən çıxarılması kimi məsələlər yox idi. Ən önəmli məsələ təbii sərvətlərlə bağlı olan məsələ idi ki, Amerikanın Ukraynanın təbii sərvətləri üzərində söz sahibi olmasını ehtiva edirdi. Bu da Trampın iddia etdiyi kimi 350 milyard, faizlərlə birlikdə 500 milyardlıq borcun geri qaytarılması idi. Hətta Bayden adminstrasiyasını da ittiham etdi ki, 350 milyard ikimizin səbəbi odur, boşuna xərcləyiblər, onu tamam başqa istiqamətdə xərcləyə bilərdik. Sülh prosesi isə növbəti mərhələnin müzakirə mövzusudur. Düşünürəm ki, sülh prosesində hansı addımların atılması atəşkəsin əldə olunacaq müddəalarından asılıdır. Putin adminstrasiyası hansı formada atəşkəsdə təmsil olunacaqsa, növbəti mərhələdə də sülh danışıqları onunla bağlıdır. İstisnasız onu deyə bilərəm ki, ərazi sərhədləri ilə bağlı konkret bir mövqeni ifadə edə bilməsək də, Ukrayna parçalanıb.

***- Rusiya hansı səbəblərdən barışıq prosesinə razılaşa bilər? İqtisadi, siyasi və ya hərbi faktorlar nə dərəcədə rol oynayır?***

- Hərbi əməliyyatların bu qədər davam etməsi Rusiyanın marağında deyil. İstədiyini alıb, işğal edib, işğal etdiyi ərazilər də təbii sərvətlərlə zəngindir. Tamamilə Ukraynanın işğal olunması ilə bağlı Tramp tərəfindən də belə bir bəyanat səsləndirildi ki, istəsə, Kiyevi belə işğal edə bilər. Bu, Rusiyanın gücünün şişirdilmiş təqdim edilməsi idi. Artıq Rusiyanın müharibədən nə qədər qazanclı olduğunu göstərir. Yavaş-yavaş sanksiyalardan yayınır. Diplomatik nümayəndəliklərin, konsulluqların açılması ilə bağlı da növbəti addımlar atılacaq. Bu o deməkdir ki, hərbi əməliyyatların Rusiya üzərində qoyduğu yük istər sanksiyaların yumşaldılması ilə bağlı olsun, istər Roma statusuna uyğun çıxarılmış məhkəmə qərarı belə yaddan çıxarılıb. Artıq Putin cinayətkar kimi təqdim olunmur. Sadəcə tərəf qismində təqdim olunur. Onun işğalçılıq faktı bu gün Ukraynanın daha çox günahlandırılması fonunda itib. Az qala Ukrayna üçüncü dünya müharibəsinin günahlarına çevrilib. Belə bir formada Amerika tərəfindən elan olunmağa çalışır. Bu gün Rusiyanın hərbi əməliyyatları dayandırmaması üçün heç bir real şərait yoxdur. Əslində üç ildir gözlədiyi məqam budur.

**Söylü Ağazadə**

# Qadın kimdir?



**_Bir vaxtlar mətbuatın sevimli mövzusu idi gender bərabərliyi mövzusu. Əzilən, xor görülən, incidilən qadınların haqqında səhifələrlə məqalələr hazırlanırdı, verilişlər, süjetlər çəkilirdi. Bütün cəhdlər, qadınların ikinci sinif kimi əziyyət görmələrini dünyaya car çəkmək, bu əziyyətə qarşı üsyanlarını mediaya çıxarmaq, baxış sayı toplamaq, müəyyən ölkələrdən alınan qrantların haqqını ödəmək uğrunda idi. Bu torpaqlar var olduğu gündən etibarən qadın hökmdar da olub, qadın diplomat da, qadın sərkərdə də, qadın cəngavər də. Qadın əzilməyib tarixən Azərbaycanda, ta ki yad mədəniyyətlər pərçimlənməyincə, yad əllər torpaqlarımıza uzanmayınca..._**




Haradasa oxumuşdum: ”Əgər bir qadın sevdiyini, sevdiyi qədər möhkəm qucaqlaya bilsə, bütün sümükləri sınar”. Zərif dediyimiz qadından dünya boyda sevgi çıxarmı? Çıxar. Bəşəriyyət onun bətnindən törəyib, sevgi onun içindən daşıb cahana. Qadın təmənnasız sevir, qarşılıqsız sevir. Qadının sevgisi dibsiz quyudur, bitməyəndir, tükənməzdir. Bir qadından təmənnasız sevgi görürsünüzsə, bunun dəyərini bilin.

Ən yaxşı dinləyici və ən yaxşı sirdaşdır qadın. Ailə o zaman bütöv olur ki, bütün sirlər açıqda olur, kişi qadını sirdaş görür özünə. O dinləməyi də bacarır, sakitləşdirməyi də. Dünyanın ən təhlükəsiz yeridir onun yanı, hələ sevirsinizsə, aşiqsinizsə onun yanı müqəddəsdir sizə. Ondan gizlətməyin, açıq sözlü kişiləri sevir qadınlar. Enerjini başqalarına xərcləyib yorğun, bitkin getmə yanına, ona da enerji sərf et, onunla danış, onu da dinlə. Məsləhət al, məsləhət ver. Qadınlar 24 saat çəkdikləri yükü unudurlar həyat yoldaşı ilə 24 saniyə də olsa dərdləşəndə. Dinlənmək, anlaşılmaq, ciddiyə alınmaq qanad verir onlara.

Evdə də, işdə də dəyişməyən bir şey var - harada qadın varsa, məsuliyyət onun üzərindədir. Ən böyük tədqiqatlar, araşdırmalar da nəticələrini elan edəndə bunu aydın görürük. Məişətdə ən böyük yük qadının çiyinlərindədir. Evdə işləyir, həyətyanı təsərrüfatda işləyir, uşaqlarla məşğul olur, məktəbə aparıb-gətirir, dərslərini etməyə nəzarət edir, dükan-bazar işlərinə qaçır, ümumiyyətlə, qadınlar nəfəs dərmir. İşləyən qadınlar iş mühitində məsuliyyəti daim çiyininə götürür, daha çox işlə yüklənir, tapşırığı daha tez yerinə yetirir, qarşı cinsə nisbətən daha çox məhsuldar olur.

Bir qadına nə verirsənsə, sənə ikiqat geri qayıdır. Sevgi, hörmət, fədakarlıq və bunun kimi bir çox münasibət formaları bir qadın üçün əvəzsiz sərvətdir. Bütün qadınlar diqqəti sevir, özünə qarşı diqqət görən qadın bunun qarşılığını artıqlaması ilə qaytarır. Çünki fədakarlıq, münasibətdə qarşı tərəfə özündən nələrisə qurban vermək onun təbiətindədir. Qadının qəlbini sevgi ilə doldurduqda o nə maddi şeyləri görür, nə də çiyinində olan yükləri. Onun tək istəyi qarşı tərəfdən gördüyü dəyər, qayğı və diqqətdir. Əslində, sizin ona ev işlərində kömək etməyiniz işini artırmaqdan başqa bir şey deyil. Çünki qadınlar yalnız öz gördükləri işi bəyənirlər, sizin təmizlədiyiniz döşəməni o yenidən təmizləyəcək, amma sizin ona kömək təklif etməyiniz böyük dəyərdir. Onun sizin köməyinizə ehtiyacı olmasa belə, bu köməyi əsirgəməyin. Əmin olun, ona etdiyiniz ən kiçik köməyi gecikmədən artıqlaması ilə özünüzə qaytaracaq.

Dünyanın heç bir yerində, heç bir qadın müharibə arzulamır. Müharibə qandır, ölümdür, bala, ər, ata, qardaş itkisidir və qadın öz ölümünə razı olar, amma onlardan birini itirməyə yox. Qadınlar sülh istəyir, həm dünyada, həm ölkəsində. Qadınlar barışmağın, sülh içində qardaşcasına yaşamağın tərəfdarıdır. Qadınlar sülh üçün övladının qatilini belə əhv edə biləcək qədər böyük ürəyə sahibdir. Qadınlar övladı müharibə görməsin deyə dünyanın yükünü çiynində gəzdirməyə razıdır. Qadın mərhəməti bu dünyanın ehtiyacı olan ən böyük duyğudur.

”Bir qadın gücdür, çox qadın isə inqilabdır” deyiblər. Bunu onlar tarixin bir çox dövrlərində sübut ediblər. Əməyini, gücünü, sağlamlığını istismar edənlərə qarşı etiraz səslərini yüksəltmələri ilə inqilab etdilər. 8 Martın qəbul edilməsi sosialist qadınların dirənişinin, etirazının, qərarlılığının nəticəsində olmadımı? Qadın istəyərsə böyük gücə malikdir, bu tarix bəşəriyyətə bunu sübut etdi.

Qadınlarsız bir dünya təsəvvür edin. Elə ilk saniyədə insanın ruhu sıxılır, nəinki cismi. Qadınlar dünyanın bəzəyidir, estetikasıdır. Estetika demişkən, estetik gözəllikdən danışmıram. Təbiətin yaratdığı, bədənini sevən, özünü yaradanın gördüyü kimi görən qadınları nəzərdə tuturam. Gözəl bir qadın lütfdür, şansdır, bəxşişdir. Əgər bir gün dünya pislikdən, zülmdən xilas olacaqsa onu qadın gözəlliyi, estetikası və zərafəti xilas edəcək.

Yaradan qadına elə bir qüdrət verib ki, bu qüdrətin eynisi yalnız özünə məxsusdur - yaratmaq qabiliyyəti. Bütün bəşəriyyət qadının bətnindən yaranıb. Tarixin bəzi dövrlərində qadınlar bu üstün xüsusiyyətinə baxmayaraq xor görülüb, əzilib və istismar edilib. Qadınlar daşlanıb, asılıb, kəsilib, yandırılıb. Yaradanın ən qüdrətli varlıq kimi xəlq etdiyi bu yaradılış möcüzəsinə qarşı olan qeyri-insani münasibət onlara bu dünyada cəhənnəmi yaşadıb.

Olduğu yeri cənnətə çevirən, xarabalığı yurd edən, yuvaya çevirəndir qadın. Ayağının dəydiyi yer gözəlləşir, əlini vurduğu hər şey yenilənir. İnsan övladının bu dünyada cənnətidir qadın. Qoxusu, nəfəsi, addımı, toxunuşu - hər şeyi cənnəti xatırladır. Cənnət onları ayağının altı, müqəddəs yer əllərinin toxunduğu yerdir. Qadını incidən özünü cənnətindən məhrum edir demək...

Yaşadığımız coğrafiyanı bizə vətən edən, yurd edən qadındır, anadır. Onu qorumaq üçün qoruyuruq əslində vətəni. Vətən bizim üçün ana deməkdir, necə ki, Ana Vətən, Ana Torpaq deyirik. Qadın yurddur, evdir, eşikdir, torpaqdır. Necə ki, torpağa atdığın dən cücərir, boy atır, məhsul verir, eləcə də ananın bətnində böyütdüyü, dünyaya gətirdiyi fidanlar böyüyür yurda oğul, qız olur. Qadınsız insan yurdsuz insandır, qadınsız kişi vətənsiz kişidir. Qadın vətəndir, vətən isə müqəddəs.

Qadın insandır, kişilər isə insan övladı. Belə deyib böyük ozan Neşet Ertaş. Siz heç bu günə qədər kişilərin haqlarının pozulması, öldürülmələri, zorakılığa məruz qalmaları səbəbindən aksiya keçirdiklərini gördünüzmü? Mən görmədim. Çünki bütün bunlara qadınlar məruz qalır, döyülür, söyülür, qətl edilir. Haqlarını tələb edirlər, ala bilsələr... İnsanlıq qaça-qaça, var gücü ilə sıldırım qayalığa doğru gedir. İnsanlığı qətl etməyin ey kişilər! Oturduğunuz budağı kəsməyin. Qadının həyatda ən böyük qorxusu qarşı tərəfin sevgisini və hörmətini itirməkdir, çünki qadınlar bitkilər kimidir, sevdikləri çiçəklər, güllər kimidir onlar, sevgi göstərməsən, suvarmasan, gübrələməsən tez solarlar.

Çox qadın öz gücünün fərqində deyil, nəinki özünə, bütün dünyaya su, gübrə ola biləcəyini bilmir. Əgər bilsə...

***Lalə Mehralı***



## “İxtisasları ”ölməkdən” xilas edə bilərik”

**“Hazırda əmək bazarı üçün keçərli olmayan, dövrün tələblərinə cavab verməyən, tamamilə başqa məzmun və standartlara malik olan ixtisaslar ”ölü ixtisaslar” kimi dəyərləndirilir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti, STM əməkdaşı Elmin Nuri deyib. O bildirib ki, həmin ixtisaslar öz zamanını başa vurur, müəyyən zaman və məkan çərçivəsində öz effektivliyini bitirir: ”Ali təhsil müəssisələrinə qəbulda hələ də bəzi ixtisaslar var ki, gələcəkdə ”ölü ixtisas” statusunu qazanacaq. Çünki ixtisasın effektivliyini, faydasını müəyyən edən kateqoriya əmək bazarındakı mövqeyidir.**



Bu gün biz ”Post-neft dövrü” üçün çalışırıq. XXI əsr süni intellekt dövrü başlayıb və getdikcə forma və məzmun cəhətdən onun tələblərinə cavab verməliyik. Biz belə dövrdə süni zəka profili üzrə ixtisaslara daha çox meyl edəcəyik. Bunu zaman özü tələb edəcək. Oksford Universitetinin mütəxəssislərinin tədqiqatına əsasən, indiki ixtisasların 40%-nin gələcəkdə heç bir əhəmiyyət daşımayacağını bildiriblər. Həmin ixtisasları indidən ”ölü ixtisaslar” adlandıra bilmərik. Bütün universitetlərdə tədris olunan ”materialşünaslıq”, ”metallurgiya”, ”mədən sənayesi”, ”sənaye mühəndisliyi”, ”cihaz mühəndisliyi” kimi ixtisaslar gələcəkdə bir çox istiqamətlərdə ya sıradan çıxacaq, ya da öz formasiyasını dəyişəcək.

Mən hər hansı bir ixtisasın ölü adlanmasına qarşıyam. Çünki həmin ixtisasa ömrünü həsr etmiş mütəxəssislərə, bu ixtisas üzrə təhsil alan tələbələrə qarşı haqsızlıqdır. Zamanın öz reallıqları var, həmin reallıqlar qaçınılmazdır. Biz də bu reallıqlardan qətiyyən qaça bilmərik. Biz burada bir ixtisasın ölü adlanmasını yox, onun hansı formasiya ilə dəyişməsini düşünməliyik.

Adı çəkilən ixtisasları nəzərdə tutub deyirəm ki, sənaye inqilabı dövrü çox geridə qalıb, artıq ”İT dövrü”dür. Biz bu ixtisaslara ”İT detallar”ını tətbiq etməklə, həmin ixtisasları inkişaf etdirə bilərik. Bir çox ixtisasları ”ölməkdən” xilas edə bilərik. Bunu yalnız həmin ixtisasların məzmununu yeni dövrə uyğunlaşdırmaqla əldə etmək olar”.

***Həmid Əhədli***

# Trampın "qızıl əsr"i və Mars iddiası

**ABŞ-ın yeni prezidenti Donald Tramp Konqresin birgə iclasında çıxış edərək, administrasiyasının bürokratiyanı azaltmaq, Amerikanın ən yaxın ticarət tərəfdaşlarına yüksək tariflər tətbiq etmək və Ukraynaya Rusiyanın hərbi müdaxiləsinə qarşı mübarizəyə son qoyması üçün təzyiq göstərmək yönündə atdığı addımları vurğulayıb. Tramp çıxış edərkən Demokratlar açıq şəkildə ona etirazlarını nümayiş etdirib. İkinci müddətə vəzifəsinə başlayan Trampın Konqresin birgə sessiyası qarşısındakı çıxışı onun ilk məruzəsi idi. Tramp Qrenlandiya, Panama və Marsı da unutmayıb. Bəzi məqamları təqdim edirik.**



## Ukrayna münaqişəsi haqqında

Bu çılğınlığa, bu qətllərə son qoymağın vaxtıdır. Biz bu sonsuz müharibəyə son qoymalıyıq. Bunun üçün hər iki tərəflə danışmaq lazımdır. Mən Zelenskidən məktub aldım, orada deyilir ki, "Ukrayna davamlı sülhü yaxınlaşdırmaq üçün mümkün qədər tez danışıqlar masasına oturmağa hazırdır";

Ukraynanın nadir torpaq metalları üzrə saziş imzalamağa hazır olduğu xəbəri aldıq;

Mən siqnallar aldım ki, Rusiya da sülh danışıqlarına hazırdır. "Bu, gözəl deyilmi?"

## Nailiyyətləri haqqında

"Vətəndaşlarıma deyirəm: Amerika qayıtdı!"

43 gündə biz əksər administrasiyaların 4 və ya 8 il ərzində əldə edə biləcəyindən daha çox şeyə nail olduq. Və bu yalnız başlanğıcdır;

Mən Amerikanı yenidən böyük etmək üçün Rəbbim tərəfindən xilas olundum. Mən buna əminəm.

## İqtisadiyyat və vəzifələr haqqında

Baydenin siyasəti ABŞ-da iqtisadi fəlakətə səbəb oldu

Mən Hökumətin Səmərəliliyi Departamentini (DOGE) yaratdım. Biz yüz milyardlarla dollarlıq fırıldaqların üstünü üzə çıxarmışıq;

Əgər siz öz məhsullarınızı Amerikada istehsal etmirsinizsə, Tramp dövründə tarifləri ödəyəcəksiniz;

Biz idxal olunan malların tariflərini artıracağıq. Çin, Hindistan və Aİ aprelin 2-də qüvvəyə minəcək ABŞ-ın cavab tariflərinə hazır olmalıdır;

Birləşmiş Ştatlar nadir torpaq metallarının istehsalını kəskin şəkildə artırmalıdır.

## Müxtəliflik və inklüzivlik siyasəti haqqında

İstənilən sahə üzrə mütəxəssislərin işə qəbulu meyarları irq və cinsiyyət deyil, peşəkar bacarıq olmalıdır;

Uşaqların cinsiyyətinin dəyişdirilməsi ilə məşğul olan bütün qurumları maliyyələşdirmədən məhrum edən fərman imzaladı;

Mən Konqresdən uşaqlar üzərində cinsiyyətin dəyişdirilməsi əməliyyatlarını birdəfəlik qadağan edən və cinayət hesab edən qanun qəbul etməsini istəyirəm;

Yanvar ayında ABŞ Ordusu son 15 ilin ən "ən yaxşı"sı oldu.

## Ən yaxın planlar haqqında

Mən bir polis məmurunu öldürən hər kəs üçün məcburi ölüm cəzasını tələb edən sərəncam imzalamışam və Konqresdən bu siyasəti daimi olmasını xahiş edirəm;

Konqres bütövlükdə ABŞ-da istehsal olunacaq təkmil raketdən müdafiə sisteminin, Qızıl Qübbənin yaradılmasına maliyyə ayırmalıdır;

Mən Qrenlandiyanın gələcəyinin necə olacağına qərar vermək hüququnu dəstəkləyirəm və Birləşmiş Ştatlara qoşulmaq qərarına gələrsə, bunu alqışlayıram. "Ümid edirəm ki, bu və ya digər şəkildə məqsədimizə nail olacağıq";

Birləşmiş Ştatlar Panama kanalına nəzarəti bərpa etməyə başladı və Amerika şirkəti kanalın limanlarını almaq üçün müqavilə bağladı.

## ABŞ-ın gələcəyi haqqında

ABŞ Amerika bayrağını Marsda və ondan uzaqlarda sancacaq

"Amerikanın Qızıl dövrü yeni başlayır. Bu, dünyanın heç vaxt görmədiyi bir şey olacaq".

## Dünya mediasının reaksiyası

Donald Trampın vəzifəyə gəldikdən sonra Konqresdəki ilk çıxışını şərh edən dünya mediası orada təkcə qaldırılan məsələləri deyil, həm də çıxışın tonunu qeyd edib.

## Politico (Arlinqton, ABŞ)

Trampın çıxışlar haqqında intuitiv olaraq bildikləri

Çıxış bu prezidentin nə qədər unikal olduğunu, layiqli siyasi davranış normalarına nə qədər məhdudiyyətsiz olduğunu və dinləyicilərinə güclü emosional mesajlar çatdırmaqda nə qədər effektiv olduğunu nümayiş etdirdi.

## Le Monde (Paris, Fransa)

Donald Tramp Konqresdə çıxış edərək, barışmaz çıxışı ilə prezidentliyinin ilk həftələrinin şok dəyərini qeyd edir

Respublikaçı konqresmenlərin həvəsi artıq quruyub getdikdən sonra da o, davam etdi. Onlar isə spikeri alqışlamaq üçün yerlərindən sıçradılar... O, çıxışının əvvəlində özünü təbrik etdi: "Amerika qayıtdı". Eyni ifadəni Co Bayden 2021-ci ildə prezidentliyinin başlanğıcında işlətmişdi. Amma bu ikisinin fikrincə, onlar açıq-aydın eyni ölkəyə malik deyildilər və onun dünya siyasətindəki yeri ilə bağlı eyni baxışa malik deyildilər.

## Financial Times (London, Böyük Britaniya)

Donald Trump, tariflərin itaətkar çıxışında "bəzi narahatçılıqlara" səbəb olacağını xəbərdar etdi

Demokratların etiraz şüarları səsləndirdiyi kəskin şəkildə bölünmüş Konqresdən əvvəl 90 dəqiqədən çox davam edən çıxış, Trampın ABŞ-ın ticarət və xarici siyasətini yenidən nəzərdən keçirmək və hökumət daxilində köklü dəyişiklikləri həyata keçirmək üçün aqressiv gündəliyi ilə qeyd olunan altı dramatik həftəni əhatə etdi.

## China Daily (Pekin, Çin)

Tramp Konqresdə həyasız nitq söyləyir

ABŞ Prezidenti Donald Tramp çıxışından ikinci müddətinin ilk 43 günündə əldə olunan nailiyyətləri vurğulamaq üçün istifadə etdi, eyni zamanda Demokratik rəqiblərini tənqid etdi və aprelin 2-dən etibarən hər iki tərəfə geniş tariflər tətbiq edəcəyini bildirdi.

## The New York Post (Nyu York, ABŞ)

Trampın çıxışı amerikalıları xəyal etdi, demokratlar əziyyət çəkdi

O, əsl barışmaz insanın bütün fəzilətlərini göstərmək üçün bütün istedadından istifadə etdi... Bütün çıxışında Tramp yalnız sağlam düşüncəyə uyğun gələni təklif etdi: iki cins, işçilərin həqiqi məziyyətlərinə görə işə götürülməsi və yüksəldilməsi, Hökumətin Optimizasiyası Departamentinin köməyi ilə absurd təşəbbüslərin bağlanması... Demokratlar problemin yalnız bir il üçün real həll yolu olduğunu söyləyirlər Ukraynada sülh.

## Fokus (Berlin, Almaniya)

Biz ikiqat Tramp görürük - o, bir əsas məsələdə yanılır

Donald Tramp çıxışında özünü və prezident kimi ilk həftələrini qeyd etmək üçün Konqresin hər iki palatasının qarşısına çıxıb. Danışan prezident deyildi. Bu zəfər idi. ABŞ hökumətinin başçısı deyil, Atlasın bir vaxtlar etdiyi kimi qübbəni çiynində tutmağa qadir olduğuna dərindən əmin olan biri... Fərq: Atlas bu tapşırığı Zevsdən alıb, Tramp isə dünyanı xilas etməyi ona amerikalı seçicilər tərəfindən əmanət edildiyinə inanır.

*V.VƏLİYEV*

*P.S. Məqalədə xarici mənbələrə istinadlar var.*

# Dağıdıcı müxalifətin “siyasi məhbus” şousu iflasa uğradı





**Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, dağıdıcı müxalifət bütün siyasi məzhəkələrinin, şoularının, bəzən isə şər və böhtanlarının arxasında xaricdəki maliyyə şəbəkələrindən qrant almaq dayanır. Məhz qrant almaq naminə Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və onların ətrafında olan trollar Azərbaycanın milli və dövlətçilik maraqlarına yönələn açıqlamalar verir, sosial şəbəkələrdə statuslar paylaşırlar. Son vaxtlar ”siyasi məhbus” termindən daha çox istifadə edir və öz ağılları ilə ölkəmizə təzyiqlər təşkil edəcəklərini düşünürlər. Müxtəlif qrupların, siyasi təşkilatların adından yayımlanan qondarma ”siyasi məhbus” siyahılarından aydın olur ki, tərəflər qrant almaq yarışında bir-biri ilə yarışa giriblər. Ancaq diqqətçəkən məqam ondan ibarətdir ki, siyahılar bir-birini təkzib edən adlar yer alıb. Siyahılar fərqli olmaqla yanaşı oğurluq edən, cibgirliklə məşğul olan, avto xuliqanlıq edən, cəmiyyətə hörmətsizlik göstərən, qaçaqmalçılıqla məşğul olan, vergi cinayətləri törədən və digər əməllərə görə həbs olunanları dağıdıcı müxalifət ”siyasi məhbus” olaraq təqdim edir.**

Görünən ondan ibarətdir ki, Əli Kərimli, Cəmil Həsənli və İsa Qəmbər üçün ”siyasi məhbus” siyahılara kimlərin adlarını əlavə etmək problem deyil, hətta keçmişi cani, qaniçən, terrorçu, insan qatili olsa belə, onların pul qarşılığında adları siyahılara salına bilər. Bu baxımdan ortada qeyri-ciddi siyahılar mövcuddur. Siyahı alverində AXCP sədri Əli Kərimlinin daha fəal olduğu görünür. Çünki onun irəli sürdüyü siyahıda adlar fərqli olmaqla yanaşı, həm də ”zəngin”dir. Ə.Kərimlinin iddiasına görə, Ələsgər Məmmədli, Müşfiq Cabbarov, Anar Məmmədov, İbrahim Hümbətov, Hafiz Babalı, Taleh Bağırzadə və bu kimi digər konkret cinayət əməli törətdiklərinə görə, həbs olunan şəxslər ”siyasi məhbus” hesab olunurlar. Halbuki, sözügedən şəxslərin əksəriyyəti istintaqda özlərini təqsirli bildiklərini etiraf edib və fəaliyyətlərində hər hansı siyasi əməl olmadığını qeyd ediblər.

## Əli Kərimli oğrunu və dələduzu da ”siyasi məhbus” olaraq təqdim edir

Dağıdıcı müxalifətin ”siyasi məhbus” siyahısında daha çox xaricdən qaçaqmalçılıq yolu ilə ölkəmizə valyuta gətirənlər yer alırlar. Eyni zamanda iş birliyində olduğu, lakin ifşa olunan şəxslərin də adları siyahıda yazılır. Misal cinayət törətməyə öyrəncəli olan A.Məmmədli haqqında 29 oktyabr 2013-cü il tarixdə AR CM-nin 192.2.2, 192.2.3, 213.2.1, 308.2-ci maddələri ilə cinayət işi açılıb. 2013-cü ildə keçirilən prezident seçkilərini nüfuzdan salmaq məqsədilə ABŞ-ın Milli Demokratiya İnstitutundan qanunsuz yolla aldığı 276 min ABŞ dolları maliyyə vəsaiti üzrə saxta əməliyyatlar həyata keçirməsi səbəbindən haqqında cinayət işi qaldırılıb və o, 5 il 6 ay azadlıqdan məhrum olunub. Ancaq ölkə Prezidentinin 17.03.2016-cı il tarixli əfv sərəncamı ilə həbsdən azad edilib. A.Məmmədli göstərilən humanistliyi dəyərləndirib, normal fəaliyyətini qurmaq əvəzinə cinayət fəaliyyətini davam etdirib. Ümumiyyətlə, A.Məmmədlinin rəhbərlik etdiyi ”Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi” 2001-ci ildən bu günədək ölkəmizdə keçirilən bütün seçkilərin müşahidəsini aparıb və bu seçkilərin beynəlxalq standartlara cavab verməməsi barədə qərəzli hesabatlar hazırlayaraq xarici donorlara və beynəlxalq təşkilatlara ötürüb. SMDTM-in fəaliyyəti ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD), Milli Demokratiya İnstitut (NDİ), Demokratiyaya Milli Dəstək fondu (NED), ”German Marşal” fondu və ABŞ səfirliyinin dəstəyi ilə həyata keçirilib. Bütün seçkilərin qeyri-demokratik mühitdə keçirilməsi barədə qərəzli hesabatlar hazırlanaraq beynəlxalq təşkilatlara təqdim edib. Sübuta yetirilib ki, SMDTM-in fəaliyyəti ABŞ-nin ”Beynəlxalq İnkişaf Agentliyi” (USAİD), ”German Marşal Fondu”, ”Freedom House”, ”National Endowment for Democracy” (NED), ”National Democratic İnstitute” (NDİ), Çexiyanın ”Prague Civil Society Center” təşkilatları tərəfindən maliyyələşdirilib. 07 fevral Prezident seçkiləri ilə bağlı Anar Məmmədli təxribat xarakterli hesabatın hazırlanmasına xidmət edəcək müşahidəçilər toplamaq üçün böyük canfəşanlıq göstərsə də, yalnız cəmi 50-60 müşahidəçi toplaya bilib. Bu da insanların onu təxribatçı kimi tanıdıqlarını və çirkin məqsədinin nədən ibarət olduğunu tam şəkildə anlamalarından irəli gəlir. Diqqətçəkən məqam ondan ibarətdir ki, bu məxluq xarici donorlardan külli miqdarda pul alsa da, müşahidəçilərə 40-50 manat pul verib.

Heç şübhəsiz ki, aldığı qrantlardan müəyyən qədər Ə.Kərimliyə də ötürüb. Qarşılığında A.Məmmədlinin təşkil etdiyi təxribatçılardan ibarət müşahidəçilərinin az qala 80 faizini AXCP Gənclər Komitəsinin üzvləri təşkil edirlər. Belə bir şəxsi ”siyasi məhbus” olaraq təqdim etmək rüsvayçılıqdır və hüquqa, qanunlara qarşı hörmətsizlikdir. Ə.Kərimlinin, C.Həsənlinin, G.Hacıbəylinin ”siyasi məhbus” kimi təqdim etməyə çalışdıqları, hədə-qorxu ilə pul tələb etməkdə ittiham olunan N.Məmmədov (Baydəmirli) da ”siyasi məhbus” olmadığını bildirib.

## Siyasi məzhəkənin sonu yaxınlaşır

Görünən ondan ibarətdir ki, dağıdıcı müxalifət və xaricdəki anti-Azərbaycan qüvvələr həbs olunan şəxslərin fikrini nəzərə almadan belə onların adlarını hazırladıqları qondarma ”siyasi məhbus” siyahısına daxil edirlər. Bu isə onu deməyə əsas verir ki, dağıdıcı müxalifət ”siyasi məhbus” siyahısını genişləndirməklə daha çox qrant almağa ümid edirlər. Lakin siyahının saxta olduğu üzə çıxınca, bir daha özlərini rüsvay etmiş olurlar. Araşdırma əsasında məlum olur ki, Nazim Məmmədov (Baydəmirli), Akif Qurbanov və digərləri ”siyasi məhbus” olaraq adlarının dağıdıcı müxalifətin siyahısında yer almasına qarşıdırlar. Nazim Məmmədov məhkəməsində açıq şəkildə adının ”siyasi məhbus” olaraq təqdim edilməsinə etiraz etdiyini bildirdi. Hətta N.Məmmədov məsələyə görə, Ə.Kərimlini sərt tənqid etdi. Bütün bunlar onu deməyə əsas verir ki, dağıdıcı müxalifət xarici maliyyə dairələrindən və müxtəlif şəbəkələrdən Azərbaycanda ”siyasi məhbus” siyahının ”zəngin” olmasına dair tapşırıq alıblar. Razılaşdırmadan və həbs edilən şəxslərin fikrini nəzərə almadan onların adlarını ”siyasi məhbus” siyahısına yazırlar. Lakin nəticə onların əleyhinə olur. Nazim Məmmədov kimi şəxslər Əli Kərimlini, Gültəkin Hacıbəylini, Cəmil Həsənlini, Arif Hacıyevi və digərlərini onların adından saxta məlumatlar yaymaqda ittiham etməklə ifşa edir. Bu isə dağıdıcı müxalifətin ifşası deməkdir.

***İLHAM ƏLİYEV***

# “Uşağım olsun, 20 yaşında diləndirəcəm”

*EKSPERT FİKRİ*



”Nənə və babalarımız nə deyiblərsə, nə ediblərsə, bunların hamısı əsrlər sonra müasir dövrdə, hətta süni intellekt proqramları vasitəsilə araşdırmaya verəndə görürük ki, bunların 90-95%-i düz çıxır. Əhd etmək beyin siqnallarını istiqamətləndirməkdir”. Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxananın təsisçisi, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib. O bildirib ki, qədim Midiyada Zərdüşt Peyğəmbər belə deyirdi: ”Xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl”.



Bu çox önəmlidir və sonrakı səmavi dinlərdə də öz əksini tapmışdır. Əhd etmək insanların bir-birinin yanında sirr açmaq, onların özlərinə, doğmalarına aid edilirdi. Əhdi pozmamaq beyni də bütün həyat kredosunda o istiqamətə yönəltmək deməkdir. Əhd etməklə bağlı deyə bilərəm ki, yalnız uşaq doğuşu ilə bağlı yox, iki gəncin ailə qurması uğrunda qohum-əqrabalar da əhd edə bilər. Əhdlə bağlı digər dünyagörüşümüzlə bağlı olan məsələlər var”.

”Təəssüflər olsun ki, son vaxtlar yeni nəsil etnoqrafik bilgilərimizdən, yaşam tərzimizdən, ensiklopedik-fəlsəfi baxışlarımızdan uzaqlaşmışıq. Əhd etməyin çox hissəsi reallaşmasa belə, insanların beyninin istiqamətləndirilməsi, fərqli yöndə öz rəqiblərinə qarşı müsbət və ya mənfi emosiyaları yönəltmək baxımından da maraqlıdır. Keçmişdə və indiki dövrdə bəzi kəndlərdə bu fikir qalıb: məhərrəmlik fərziyələri, orucluq zamanı yaslarda xüsusi adamlar vardır ki, onlar Allaha dua, alqış, qarğış və əhdlər edirdi. Onlar əhd edirdilər ki: ”Oğlum əsgərlikdən sağ-salamat gəlsə və ya Qarabağ torpaqları qayıtsa, ”filan işləri görəcəm”.

Bəzi savadsız, etnoqrafik bilgiləri olmayan şəxslər əhd edir ki: ”Oğlum ticarətlə məşğuldur, əgər uğurlu olsa, qurban kəsəcəm, yerlə sürünə-sürünə onun ayağına gedəcəm və s”. Bu primitiv şeyləri çıxmaq şərtilə əhdlər pis şeylər deyil. Bu, nənə-babalarımızın qazandığı düşüncə tərzinin bir hissəsidir. Yaxşı olar ki, əhdlərlə bağlı insanlar müsbət, pozitiv işlərlə məşğul olsunlar. Əhd etmək olar ki: ”Mənim uşağım universiteti qurtarsın və ya elmlər namizədi olsun. Azərbaycanın inkişaf etməsi ilə bağlı format ortaya qoyub işlər görsün”. Son vaxtlar görürük ki, deyirlər: ”Mənim qızım varlı şəxsə ərə getsin”, ”Ərim başqa qadınlarla yox, mənimlə gəzsin”. Bu əhdlər primitivləşmiş, bəzən isə reallaşmayan arzulardır. Bundan daha ciddi və önəmli məsələlər haqqında düşünmək olar” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Avrasiyanın yeni güc mərkəzi

*Bakı Avrasiyanın əsas siyasi, iqtisadi və mədəni mərkəzlərindən birinə çevrilir*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*








**Son dövrdə Azərbaycanın həyata keçirdiyi siyasət həm regionda, həm də bütün Avrasiyada yeni bir mərkəzin ortaya çıxmasına səbəb olub. Şərqlə Qərbin, Cənubla Şimalın arasında strateji coğrafi mövqedə yerləşən Azərbaycan bu imkandan həm siyasi, həm də iqtisadi mərkəzə çevrilmək üçün uğurla istifadə edib.**

Azərbaycanın xarici siyasət prioritetlərinin modernləşdirilməsi istiqamətində məqsədyönlü siyasətinin uğurları ildən-ilə artmaqdadır. İndi dünyanın istənilən regionunu təmsil edən dövlətlərlə Azərbaycanın yüksək səviyyəli ikitərəfli, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əlaqələri formalaşıb. Prezident İlham Əliyev daim ölkənin xarici siyasətinin müasir tələblərə adekvat şəkildə qurulmasını təmin etməyi müvafiq orqanların və diplomatik korpusumuzun qarşısına bir vəzifə olaraq qoyur.

Birmənalıdır ki, dövlət başçısının müəyyənləşdirdiyi strateji kursun uğurları getdikcə daha böyük miqyaslar alacaq. Bunu indiyə qədər beynəlxalq əməkdaşlıq sayəsində əldə edilən siyasi-iqtisadi nailiyyətlər təsdiqləyir.

Hələ 2008-ci ildə xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diplomatik korpuslarının rəhbərlərinin Bakı müşavirəsində Prezident İlham Əliyev bildirmişdi: "Azərbaycanın uğurlu xarici siyasəti bizim həm siyasi, həm iqtisadi, həm enerji, həm də nəqliyyat sahələrində qəbul olunur və bu təşəbbüslər Azərbaycanı daha da gücləndirir və güclü mərkəzə çevirir. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, Azərbaycanın iştirakı olmadan bu bölgədə heç bir layihə həyata keçirilə bilməz. Bu onu göstərir ki, Azərbaycan bölgənin aparıcı ölkəsinə çevrilir. Qurulan beynəlxalq əməkdaşlıq nəticəsində Azərbaycanın əldə etdiyi nailiyyətlərin regional müstəvidən çıxdığını deyən dövlət başçısı ölkəmizin dünya miqyasında çox qabaqcıl yerlərdə olduğunu bildirdi. Bu uğurları səciyyələndirən dövlət başçısı vurğulayır: "Bax budur bizim real nailiyyətlərimiz, nəticələrimiz, siyasətimiz və fəaliyyətimiz: həm daxildə iqtisadi artım, siyasi sabitliyin möhkəmlənməsi, ictimai ab-havanın yaxşı olması, həm də hüdudlarımızdan kənarda olan məsələlərin uğurlu həlli".

Təbii ki, dünyada analoqu olmayan nəticələrin əldə edilməsi bir neçə amilin sadəcə uyğunlaşdırılmasının yekunu ola bilməz. Dünya praktikasında təbii sərvətləri milli inkişafa deyil, faciəyə səbəb olmuş onlarla dövlətlər vardır. Yalnız Norveç, Birləşmiş Ərəb Əmirliyi kimi bir-iki dövlət öz ehtiyatlarını məqsədyönlü şəkildə milli tərəqqiyə yönəldə bilib. Hollandiya, Nigeriya kimi dövlətlər isə iqtisadi böhran silsilələrindən bu vaxta qədər qurtulmaqda çətinlik çəkirlər.

Neft strategiyasını hərtərəfli inkişaf kursuna çevirən Azərbaycanın təcrübəsi bu mənada yeni inkişaf etməkdə olan dövlətlərə nümunə göstərilir. Beynəlxalq maliyyə və konsaltinq qurumları inkişafın Azərbaycan modelinin formalaşdığını dəfələrlə bəyan etmişlər. Onların mülahizələrinə görə dünya iqtisadiyyatında indiyə qədər mövcüd olan çoxsaylı modellərə biri də əlavə olunmuşdur. Bu model Azərbaycanın timsalında bərqərar olmuş və yaxın gələcəkdə Şərqi Avropanın və Mərkəzi Asiyanın inkişaf etməkdə olan ölkələri üçün model kimi tətbiq oluna bilər.

Dövlət başçısının beynəlxalq sferadakı fəal diplomatiyasının təzahürlərindən biri də respublikamızın mədəniyyət, idman sahələrinə, beynəlxalq sülh və təhlükəsizlik təşəbbüslərinə həsr olunan tədbirlərə ev sahibliyi etməsidir. Azərbaycan formal təşkilatçılığı ilə deyil, həm də təşəbbüskar ev sahibliyi ilə Cənubi Qafqazın qaynar siyasi-iqtisadi mərkəzinə çevrilib. İndi istənilən region dövlətlərinin, eləcə də Şərqi Avropa ölkələrinin paytaxtları Bakının mərkəz kimi uğurlarına qibtə ilə yanaşırlar. Son vaxtlar Bakıda keçirilən beynəlxalq səviyyəli tədbirlərin çoxluğu da paytaxtımızın dünyanın nüfuzlu şəhərləri arasında yer aldığını göstərən faktlardandır.

Dövlət başçısının dövlətçilik konsepsiyası region dövlətlərinin üstələnməsi, sülh razılaşmasına marağı olmayan Ermənistanın siyasi-iqtisadi, diplomatik dalana salınması ilə səciyyəvidir. Bu ölkənin rəhbərlərinin son bəyanatları da qonşu ölkənin siyasivə iqtisadi tənəzzülündən xəbər verir. Halbuki, nəinki xarici ekspertlər, erməni ekspertləri belə etiraf edirlər ki, qonşularla olan problemlər tezliklə həll edilməsə yaranacaq siyasi və iqtisadi vəziyyət Ermənistan üçün sarsıdıcı ola bilər.

Prezident İlham Əliyev dünya səviyyəsində Azərbaycanın söz sahibi olduğunu, həmçinin XXI əsrdə dövlətlərin böyüklüyünün, yaxud kiçikliyinin fərq etmədiyini, dövlətin müstəqil siyasət yeridə bilməsinin əsas olduğunu ortaya qoydu. gün dünya ölkələri bu siyasətə böyük qiymət verirlər.

Bakı dünya səviyyəsində balanslaşdırılmış xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan xalqının mənafeyini, inkişafını və perspektivini müəyyənləşdirir. Azərbaycan demokratik, müstəqil və azad bir ölkə kimi tanınır. İnkişaf etmiş və yeni inkişaf yoluna qədəm qoymuş ölkələrlə qarşılıqlı əməkdaşlıq şəraitində müqavilələr bağlanılır.

Azərbaycanın xarici siyasətində balanslaşdırma ana xətdir. Ona görə də əksər ölkələr tərəfindən Azərbaycanın bu uğurları dəstəklənir.

Prezidentimizin ayrı-ayrı ölkələrə rəsmi səfərləri zamanı Azərbaycanın inkişafı, tərəqqisi, beynəlxalq aləmdə nüfuzunun artması, möhkəmlənməsi sahəsində mühüm işlər görülür. Prezidentimiz nəinki dünyanın inkişaf etmiş ölkələrinə səfərlər edir, eləcə də Azərbaycanın gələcəyi, xalqımızın mənafeyi üçün hardasa faydalı olacaq tədbirləri həyata keçirə bilən ölkələrlə də əməkdaşlığı zəruri hesab edir. Bu əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəlir.

Qeyd olunanlar onu göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatlar ölkəmizin qlobal siyasi nüfuzunu gücləndirib və əksər beynəlxalq təşkilatlar da bunu qeyd edir. Siyasətin əsas məqsədini iqtisadiyyatın inkişafı ilə bağlayan dövlətimizin başçısı İlham Əliyev xüsusi olaraq vurğulayır: "Biz bütün imkanlarımızı səfərbər etməliyik ki, güclü dövlət yaradaq. Çünki, iqtisadiyyat hər bir dövlətin təməl sistemidir. Güclü iqtisadiyyatı olan ölkə isə siyasi cəhətdən müstəqil olur və öz maraqlarını daha da uğurla müdafiə edə bilir.

Ermənistan üzərində qələbədən və öz ərazilərinin azad edilməsindən sonra Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daha da artıb. Buraya regiona və beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsi, enerji bazarında mövqelərinin gücləndirilməsi, qlobal ekoloji problemlərin həllində təşəbbüskarlıq, Qoşulmama Hərəkatındakı liderlik mövqeyi, dünyada sülhün və əməkdaşlığın təbliği siyasətini də əlavə etsək aydın olar ki, bu gün Azərbaycan təkcə regionun deyil, dünyanın da nüfuzlu dövlətlərindən birinə çevrilib.

Bütün bu amillər onu göstərir ki, Azərbaycan Avropa ilə Asiyanın arasında yeni bir güc mərkəzi kimi ortaya çıxıb və bir çox məqamlarda həlledici söz sahibidir. İstər iqtisadi, istərsə də digər sahələrdə Azərbaycan bir mərkəzə çevrilmək üzrədir-Avrasiyanın yeni mədəni, siyasi, iqtisadi mərkəzinə.

***Elçin Bayramlı***

# Uğur PİRAMİDASI - qələbələr qazanan güləşçi!



Bildiyimiz kimi Azərbaycan idmanının xoş sorağı möhtəşəm yarışlardan eşidilməkdədir. İdmançılarımız daima möhtəşəm uğurları ilə bizləri sevindirirlər. Bütün uğurların təməli isə heç şübhəsiz ki, uşaq idmanından başlanır. Respublikamızın hər bir bölgəsində idmana xüsusi diqqət və qayğı göstərilir. Bütün bu qayğıların nəticəsidir ki, gənclərimiz idmana sonsuz həvəs göstərirlər. Belə gənclərimizdən biri ilə hörmətli oxucularımızı tanış etmək istəyirik: Raul Ramin oğlu Həsənov idmanın ən geniş növlərindən biri olan sərbəst güləşlə məşğul olur. 8 yaşından bu güləş növü ilə məşğul olan Raul mütəmadi olaraq Gəncədə, Şamaxıda və s. rayonlarda güləş üzrə təşkil olunan yarışlarda dəfələrlə I, II, III yerlərə layiq görülüb.

Qonşu Gürcüstan Respublikasında keçirilən yarışda da Raul bütün rəqiblərinə qalib gələrək I yerə layiq görülmüş və Azərbaycanımızın adını yüksəklərə qaldırmışdır. Raulu bu idman növü ilə məşğul olmağa atası həvəsləndirib. Artıq yarışlarda qələbə qazanan Raul mart ayının 11-də Bakı çempionatına vəsiqə qazanıbdır. 71 kq çəki dərəcəsində yarışa qatılacaq Raul inanırıq ki, bu çempionatda da sevindirici yerə layiq görüləcəkdir. Məşqçi Valeh İsmayılova dərin minnətdarlığını bildirən Raul həmçinin qeyd etdi: "Mənim əldə etdiyim bütün nailiyyətlərə görə atama və məşqçimə daim borcluyam."

Sonda onu da qeyd edək ki, Raulun bu günlərdə ad günüdür. Gənc idmançını doğum günü münasibətilə səmimi qəlbdən təbrik edir, ona həyatda insan üçün ən şirin nemət olan möhkəm cansağlığı, bu şərəfli yolda uğurlar arzulayırıq. Raulun uğurlarına xüsusilə "Son Dakika" mətbəəsinin təsisçisi Xalil Kan da qoşularaq onun arzularının daim reallaşması üçün əlindən gələni əsirgəməyəcəyini vurğuladı. Yaşasın Türkiyə Azərbaycan qardaşlığı!


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Bu tarixlərdə iş saatları QISALDILACAQ



Xəbər verdiyimiz kimi, 2025-ci ilin mart ayında iş və istirahət günlərində dəyişiklik edilib. SİA-nın verdiyi xəbərə görə, 8 Mart Beynəlxalq Qadınlar Günü, 20-24 mart tarixlərində Novruz bayramı, həmçinin 30 və 31 mart Ramazan bayramı iş günü hesab edilməyən rəsmi bayram günləri kimi qeyd olunur. Nazirlər Kabinetinin qərarına əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 27 və 28 mart iş günləri 10 mart və 1 aprel tarixlərinə dəyişdirilib. Bununla yanaşı, Əmək Məcəlləsinə uyğun olaraq həftəarası istirahət günləri bayram günləri ilə üst-üstə düşdüyü halda həmin istirahət günləri bayramdan sonrakı iş gününə keçirilir. Beləliklə, 2025-ci ilin 20-31 mart tarixləri iş günü hesab edilmir. İlk iş günü 1 aprel tarixinə təsadüf edəcək. Bundan əlavə, bayram ərəfəsi - 7 mart və 19 mart tarixlərində iş saatları 1 saat qısaldılacaq.

## 12 il əvvəl Rusiyada qadın öldürmüşdülər, Bakıda həbs olundular

Rusiyada 12 il əvvəl qadını öldürən azərbaycanlılar tutulub. Bu barədə SİA-ya Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, ötən il dekabrın 27-də Rusiya Federasiyasının Baş Prokurorluğu 1993-cü il təvəllüdlü Azaliya Asanovanın sağlamlığına ağır zərər vurulması faktı üzrə başlanan cinayət işini Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərib. İbtidai istintaqın davam etdirilməsi Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq İdarəsinə həvalə edilib. İstintaqla, 2013-cü il iyunun 25-də Azərbaycan Respublikası vətəndaşları Seymur Məmişov və Elxan Xuduyevin qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşib törətdikləri ağır cinayəti gizlətmək məqsədilə əvvəllər tanıdıqları Rusiya Federasiyasının vətəndaşı Azaliya Asanovanı boğaraq öldürmələrinə əsaslı şübhələr müəyyən edilib.



Toplanmış sübutlar əsasında, cari il martın 5-də S.Məmişov və E.Xuduyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 120.2.1 (Azərbaycan Respublikasının vətəndaşları tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənarda qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam öldürmə), 12.1, 120.2.6 (başqa cinayəti gizlətmək məqsədilə adam öldürmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub. İstintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında qeyd olunan şəxslər barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu ötən illərdən bağlı qalan cinayət işlərinin açılması istiqamətində beynəlxalq əməkdaşlığı uğurla davam etdirir və xarici ölkələrin hüquq-mühafizə orqanları ilə birgə effektiv istintaq tədbirləri həyata keçirir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 2700